AZƏRBAYCAN RESPUBLİKASI
SƏHİYYƏ NAZİRLİYİ

SƏHİYYƏ NAZİRLİYİNİN FƏALİYYƏTİNİ TƏNZİMLƏYƏN QANUNVERİCİLİK AKTLARINA DAİR

# BƏLƏDÇİ QAYDALAR

BAKI - 2015

**AZƏRBAYCAN RESPUBLİKASI**
**SƏHİYYƏ NAZİRLİYİ**

# SƏHİYYƏ NAZİRLİYİNİN FƏALİYYƏTİNİ TƏNZİMLƏYƏN QANUNVERİCİLİK AKTLARINA DAİR BƏLƏDÇİ QAYDALAR

**Bakı – 2015**

Bələdçi Qaydalar Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli 2421 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Açıq Hökumətin təşviqinə dair 2012-2015-ci illər üçün Milli Fəaliyyət Planı"nın icrası üzrə Səhiyyə Nazirliyinin 2014 və 2015-ci illər üçün illik İş Planlarına əsasən Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.

## MÜNDƏRİCAT

Əhalinin sağlamlığının qorunması barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........ 5

İnsan orqan və (və ya) toxumalarının transplantasiyası barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........ 10

Tibbi sığorta barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........ 14

Özəl tibb fəaliyyəti barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........ 19

Yoluxucu xəstəliklərin immunoprofilaktikası barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........ 24

Azərbaycan Respublikasında vərəmlə mübarizə barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........ 26

Psixiatriya yardımı barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........ 28

Narkoloji xidmət və nəzarət barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........ 31

Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........ 34

Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........ 36

Qanın, qan komponentlərinin donorluğu və qan xidməti barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........ 38

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........ 41

Onkoloji yardım barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........ 48

Dərman vasitələri barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........................................................... 51

İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ....... 54

Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ....... 58

Uşaqların icbari dispanserizasiyası barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR ........................................... 61

## Əhalinin sağlamlığının qorunması barədə qanunvericilik aktlarına dair Bələdçİ Qaydalar

26 iyun 1997-ci il tarixdə "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun əhalinin sağlamlığının qorunması sahəsində vətəndaşlarla dövlət orqanları, eləcə də dövlət və qeyri-dövlət səhiyyə sistemlərinin subyektləri arasında yaranan münasibətləri tənzimləyir.

Qanuna uyğun olaraq əhalinin sağlamlığının qorunması hər bir insanın fiziki və ruhi sağlamlığının mühafizəsinə, onun fəal uzun ömürlüyünün artırılmasına, tibbi yardımla təminatına yönəldilmiş siyasi, iqtisadi, hüquqi, elmi, tibbi, sanitariya-gigiyena xarakterli tədbirlərin məcmusundan ibarətdir. Əhalinin sanitariya-epidemioloji salamatlığı dövlət sanitariya-epidemioloji xidmətinin nəzarəti altında bütün hüquqi və fiziki şəxslər tərəfindən gigiyenik, əksepidemik tədbirlər kompleksini həyata keçirməklə, müvafiq qanunvericiliyə uyğun olaraq təmin edilir.

Azərbaycan Respublikası vətəndaşlarının sağlamlığını qorumaq və tibbi yardım almaq hüququ vardır. Dövlət tibb müəssisələrində tibbi xidmət pulsuzdur, yalnız bu Qanunda nəzərdə tutulan hallar istisna olmaqla pullu ixtisaslaşdırılmış tibbi yardımın növləri müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi) tərəfindən müəyyən edilir. Xaricdə olan Azərbaycan Respublikası vətəndaşlarının sağlamlığının qorunması Azərbaycan Respublikasının beynəlxalq müqavilələrinə uyğun olaraq həyata keçirilir. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin əhalinin sağlamlığının qorunması sahəsində Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər hüquqları vardır. Xəstələndikdə, əmək qabiliyyətini itirdikdə və digər hallarda vətəndaşların tibbi-sosial yardım almaq hüququ vardır.

Vətəndaşlar tibbi sığorta sistemindəki tibb müəssisələrində qanunvericiliyə uyğun olaraq icbari tibbi sığorta əsasında tibbi yardımla təmin edilirlər. Vətəndaşların könüllü tibbi sığorta əsasında, eləcə də müəssisələrin, təşkilatların ayrı-ayrı şəxslərin vəsaitləri və

qanunvericilikdə qadağan edilməyən digər mənbələr hesabına tibbi yardım almaq və digər əlavə tibbi xidmət növləri ilə təmin olunmaq hüququ vardır.

Hər bir vətəndaş ailənin planlaşdırılması, ətrafdakılar üçün təhlükə törədən xəstəliklərin mövcudluğu məsələlərinə və ailə-nikah münasibətlərinin tibbi-psixoloji cəhətlərinə dair, habelə nəsildə mümkün olan irsi xəstəliklərə yol verməmək məqsədilə yaşayış yerindəki dövlət və bələdiyyə tibb müəssisələrində pulsuz məsləhətlər almaq, müayinədən keçmək və dispanser nəzarətində olmaq hüququna malikdir.

Pasiyentin təxirəsalınmaz tibbi yardım göstərilməsi halları istisna olmaqla həkimin öz razılığı ilə həkimi, o cümlədən müalicə həkimini və müalicə-profilaktika müəssisəsini seçmək, sanitariya-gigiyena tələblərinə uyğun olan şəraitdə müayinə və müalicə olunmaq, stasionar müalicə olunduğu tibb müəssisəsinin mütəxəssislərinin iştirakı ilə konsilium və məsləhətləşmələr aparılmasını tələb etmək, tibbi yardım üçün müraciət faktını, müalicə, sağlamlıq vəziyyəti, xəstəliyin diaqnozu barəsində, eləcə də müayinə və müalicə zamanı əldə edilən digər məlumatları ətrafdakılardan gizli saxlamaq, tibbi müdaxiləyə şifahi və ya yazılı könüllü razılıq vermək, tibbi müdaxilədən imtina etmək, hüquq və vəzifələri haqqında, sağlamlığının vəziyyəti barədə məlumat almaq və öz mənafeyi baxımından bu məlumatı vermək mümkün olan şəxsi seçmək, daxili qaydalar pozulmamaq şərtilə xəstəxanada dini mərasimin icra edilməsi üçün ayrıca yerlə təmin olunmaq hüquqları vardır.

Hər bir vətəndaş müayinənin nəticəsi, xəstəliyin diaqnoz və proqnozu, müalicə üsulları və bununla bağlı risk dərəcələri, aparılmış müalicənin nəticəsi haqqında məlumatlar da daxil olmaqla sağlamlığının vəziyyəti barədə özü üçün səmərəli formada məlumat almaq hüququna malikdir.

Vətəndaşın tibbi yardım üçün müraciət etməsi faktı, onun xəstəliyinin diaqnozu, sağlamlığının vəziyyəti müayinə və müalicə vaxtı əldə edilən digər məlumatlar barədə informasiya həkim sirrini təşkil edir. Vətəndaşın verəcəyi məlumatın gizli saxlanılması haqqında ona zəmanət verilir.

15 iyul 1997-ci il tarixdə "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi

barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə dövlət tibb müəssisələrində göstərilən pullu ixtisaslaşdırılmış tibbi yardımın növlərini, işə qəbul zamanı və iş müddəti ərzində işəgötürənin vəsaiti hesabına yoluxucu və peşə xəstəliklərinin qarşısının alınması məqsədi ilə məcburi dövri tibbi müayinədən keçirilən işçilərin peşə növlərinin siyahısını, yetkinlik yaşına çatmayanların güzəştli şərtlərlə qidalanmaq və tibbi-sosial yardım almaq hüquqlarının təmin edilməsi qaydasını, hamiləliyin süni pozulmasına dair sosial göstərişlərin siyahısını, ictimai təhlükəli xəstəliklərin siyahısını, hərbi-həkim ekspertizasının təşkili və aparılması qaydasını, hərbi qulluqçuların, hərbi xidmətə çağırılan və ya müqavilə (kontrakt) üzrə hərbi qulluğa daxil olan vətəndaşların sağlamlığının vəziyyətinə dair tələbləri, xarici ölkələrdə hazırlıq alan tibb və əczaçılıq işçilərinin Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması qaydasını, təhlükəli və ya zərərli əmək şəraiti ilə əlaqədar əlavə haqq, kompensasiya və ya digər güzəştlər almaq hüququna malik olan tibb və əczaçılıq işçilərinin siyahısını, xidməti vəzifələrini yerinə yetirərkən həlak olmuş dövlət səhiyyə müəssisələrinin tibb və əczaçılıq işçilərinin ailələrinə verilən birdəfəlik müavinətin miqdarını müəyyən edən müvafiq normativ-hüquqi aktların qəbul edilməsi və bu haqda Azərbaycan Respublikası Prezidentinə məlumat verilməsi tapşırılmışdır.

Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə dövlət səhiyyə sisteminin uşaq və yeniyetmə tibb xidməti müəssisələrində yetkinlik yaşına çatmayanların pulsuz dispanser nəzarətində olması və müalicəsi qaydasını, hamiləliyin süni surətdə pozulmasına dair tibbi göstərişlərin siyahısını, tibbi sterilizasiyaya dair göstərişləri, ilkin tibbi sanitariya yardımının göstərilməsi qaydasını, təcili və təxirəsalınmaz tibbi yardımın göstərilməsi qaydasını, ixtisaslaşdırılmış tibbi yardımın növlərini, həcmini, keyfiyyət standartlarını və göstərilməsi qaydasını, tibbi-sosial yardımın növlərini və həcmini, insanın ölüm anının müəyyən edilməsi, reanimasiya tədbirlərinin dayandırılması meyarlarını və qaydasını, patoloji-anatomik yarmanın aparılması qaydalarını, ali tibb və

əczaçılıq təhsilini başa vurmamış şəxslərin orta tibb təhsilli işçi vəzifəsində tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması qaydasını, səhiyyə mütəxəssislərinin peşə, bilik və bacarıqlarının dövlət standartlarına, tibb və əczaçılıq peşələrinin nomenklaturasına uyğun olan fəaliyyət üçün vacib olan diaqnostika, müalicə, profilaktika və sağlamlığı möhkəmləndirmə metodlarının məcmusunu müəyyən edən normativ-hüquqi aktların qəbul edilməsi və bu haqda Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına məlumat verilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 nömrəli 3 yanvar 2000-ci il tarixli Qərarı ilə "İşçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli iş yerlərində, habelə əhalinin sağlamlığının mühafizəsi məqsədi ilə yeyinti sənayesi, ictimai iaşə, səhiyyə, ticarət və bu qəbildən olan digər iş yerlərində əmək müqaviləsi bağlanılarkən işçilərin sağlamlığı haqqında tibbi arayış tələb olunan peşələrin (vəzifələrin), iş yerlərinin Siyahısı", 5 nömrəli 12 yanvar 1999-cu il tarixli Qərarı ilə "Hamiləliyin süni pozulmasına dair sosial göstərişlərin Siyahısı", "İctimai təhlükəli xəstəliklərin Siyahısı" və "Xarici ölkələrdə hazırlıq alan tibb və əczaçılıq işçilərinin Azərbaycan Respublikasında tibb və əczaçılıq fəaliyyəti ilə məşğul olmağa buraxılması Qaydası", 48 nömrəli 18 mart 2000-ci il tarixli Qərarı ilə "Hərbi-həkim ekspertizasının təşkili və aparılması Qaydası" və "Hərbi qulluqçuların, hərbi xidmətə çağırılan və ya müqavilə (kontrakt) üzrə hərbi qulluğa daxil olan vətəndaşların sağlamlığının vəziyyətinə dair Tələblər" və 92 nömrəli 5 iyul 2004-cü il tarixli Qərarı ilə "Əmək şəraitinə və əmək funksiyasının xarakterinə görə əlavə məzuniyyət hüququ verən, zərərli və ağır istehsalatların, peşə və vəzifələrin Siyahısı" təsdiq edilmişdir.

24 fevral 2015-ci il tarixdə "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanuna əsasən "Tibb fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlət tibb müəssisələrinin nizamnamələrində və ya özəl tibb fəaliyyəti sahəsində onlara verilmiş xüsusi razılıqda (lisenziyada) göstərilən işlər və xidmətlərdən kənar (ilkin tibbi

yardım istisna olmaqla) tibb fəaliyyətinin həyata keçirilməsinə yol verilmir".

Bununla əlaqədar həmin tarixdə Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanunla Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə əlavə edilmiş 65-3-cü maddəyə (Sağlamlığın qorunması sahəsində vətəndaşların hüquqlarının pozulması) əsasən:

Tibb fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən dövlət tibb müəssisələrinin nizamnamələrində və ya özəl tibb fəaliyyəti sahəsində onlara verilmiş xüsusi razılıqda (lisenziyada) göstərilən işlər və xidmətlərdən kənar tibb fəaliyyətinin həyata keçirilməsinə görə fiziki şəxslərin üç yüz manatdan beş yüz manatadək, vəzifəli şəxslərin səkkiz yüz manatdan bir min manatadək, hüquqi şəxslərin altı min manatdan səkkiz min manatadək miqdarda cərimə edilməsi nəzərdə tutulub.

Həmçinin tibb işçiləri öz vəzifələrini yerinə yetirərkən, ixtisaslaşdırılmış tibbi yardımın göstərilməsi tələb olunan şəxsləri bu yardımı göstərən tibb müəssisələrinə göndərmədiklərinə görə fiziki şəxslərin iki yüz manatdan üç yüz manatadək, vəzifəli şəxslərin beş yüz manatdan səkkiz yüz manatadək miqdarda cərimə edilməsi nəzərdə tutulub.

**İnsan orqan və (və ya) toxumalarının transplantasiyası barədə qanunvericilik aktlarına dair**
**BƏLƏDÇİ QAYDALAR**

28 oktyabr 1999-cu il tarixdə "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun müasir elmi nailiyyətlərə və tibbi təcrübəyə əsaslanaraq insan orqan və (və ya) toxumalarının transplantasiyası (köçürülməsi) ilə bağlı münasibətləri tənzimləyir.

Qanuna uyğun olaraq ürək, ağciyər (ürək-ağciyər kompleksi), böyrəklər, qaraciyər, mədəaltı vəzi və onların seqmentləri, sümük iliyi, gözün buynuz qişası və siyahısı müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilən digər orqan və (və ya) toxumalar transplantasiyanın obyekti ola bilər. Bu Qanun reproduksiya vəzifələrinə və bu məqsədlə istifadə edilən orqanlara, onların hissələrinə və (və ya) toxumalara (yumurta hüceyrələri, sperma, yumurtalıq, xaya və embriona), eləcə də qan və onun komponentlərinə şamil edilmir.

Transplantasiyanın qaydaları və şərtləri, onun həyata keçirildiyi ixtisaslaşdırılmış tibb müəssisələrinin siyahısı müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

Donorun yaşı 18-ə çatmadıqda ondan sümük iliyi istisna olmaqla, transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaların götürülməsi qadağandır. Resipiyentin sağlamlığı üçün təhlükə törədən xəstəliyi olan şəxslərdən orqan və (və ya) toxumaların götürülməsi qadağandır. Resipiyentin qulluq tabeliyində və ondan fiziki, mənəvi, maddi cəhətdən asılı olan və ya həbsdə olan şəxslərdən, hərbi əsirlərdən və ruhi xəstələrdən transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaların götürülməsi yolverilməzdir.

Transplantasiya məqsədi ilə orqan və (və ya) toxumaların köçürülməsi siyahısı müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilən ixtisaslaşdırılmış tibb müəssisələrində aparılır. Orqan və (və ya) toxumaların götürülməsi, hazırlanması (konservasiyası) və

saxlanması qaydaları müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

Resipiyent 18 yaşına çatmamışsa, transplantasiyaya onun valideynləri və ya qanuni nümayəndəsi tərəfindən yazılı razılıq verilir. Resipiyentin həyatı təhlükədə olarsa, istisna hal kimi onun özünün, valideynlərinin və qanuni nümayəndəsinin razılığı alınmaya bilər.

Şəxs sağlığında donorluğa yazılı razılığını bildirərsə, ölümündən sonra transplantasiya məqsədi ilə onun orqan və (və ya) toxumalarından istifadə oluna bilər. Şəxs bu məsələyə münasibətini bildirməyibsə, ölümündən sonra yaxın qohumlarının və ya qanuni nümayəndələrinin icazəsi ilə onun orqan və (və ya) toxumalarının götürülməsinə yol verilir.

Donorun orqan və (və ya) toxumaların götürülməsi nəzərdə tutulan tibb müəssisəsindən planlaşdırılan tibbi əməliyyatla bağlı gözlənilən ağırlaşmalar barədə tam və obyektiv məlumat almaq, bu əməliyyatla bağlı dövlət tibb müəssisələrində pulsuz müalicə və reabilitasiya olunmaq, o cümlədən dərman vasitələri ilə pulsuz təmin olunmaq və donorluqla əlaqədar əlil olarsa, qanunvericiliyə uyğun olaraq pensiya almaq hüquqları vardır.

Orqan və (və ya) toxumalarının köçürülməsinə razılıq verən donor özünün zərərli vərdişləri və ona məlum olan xəstəlikləri barədə məlumat verməlidir.

Donordan transplantasiya üçün cüt orqanlardan birini, tək orqan və (və ya) toxumalardan isə o miqdarda və həcmdə götürmək olar ki, donorun həyatı üçün təhlükəli hallar, yaxud onun sağlamlığında bərpaolunmaz pozğunluqlar yaranmasın.

Donor və resipiyentin razılığı olmadan tibb işçilərinin transplantasiya barədə məlumat yaymaları qadağandır.

İnsan orqan və (və ya) toxumaları alqı-satqı obyekti ola bilməz. Bu müddəalar toxuma komponentlərindən hazırlanmış köçürmə materiallarına və preparatlara şamil edilmir.

15 yanvar 2000-ci il tarixdə "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə “İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş transplantasiya obyekti olan orqan və (və ya) toxumaların siyahısının, orqan və (və ya) toxumaların transplantasiyasının qaydaları və şərtlərinin, habelə onun həyata keçirildiyi ixtisaslaşdırılmış tibb müəssisələrinin siyahısının, orqan və (və ya) toxumaların götürülməsi, hazırlanması (konservasiyası) və saxlanılması qaydalarının təsdiq edilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 168 nömrəli 13 sentyabr 2000-ci il tarixli Qərarı ilə “Transplantasiya obyekti olan orqan və (və ya) toxumaların Siyahısı”, 37 nömrəli 7 mart 2005-ci il tarixli Qərarı ilə “Əlillərə, məcburi köçkünlərə, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxsin) statusunu almış müvəqqəti yaşayış yerində və xəstəxanalarda olan qocalara, uşaqlara, aztəminatlı və ailə başçısını itirmiş şəxslərə, fövqəladə hallarda insanların xilas edilməsində və tibbi yardım göstərilməsində iştirak edərkən ziyan çəkmiş vətəndaşlara, Azərbaycan Respublikasının HİV/AİDS-lə xəstələnmiş vətəndaşlarına, orqan və (və ya) toxumaların götürülməsi zamanı əməliyyatla bağlı donorlara tibbi və əlil, əqli və ya fiziki çatışmazlıqları olan uşaqlara tibbi, defektoloji və psixoloji yardımın (xidmətin) göstərilməsi Qaydası”, 38 nömrəli 7 mart 2005-ci il tarixli Qərarı ilə “20 Yanvar əlillərinin, milli münaqişə zəminində əlil olanların, əlil uşaqların və digər kateqoriyalardan olan I və II qrup əlillərin, Çernobıl AES-də qəza nəticəsində köçürülmə günü ana bətnində olan uşaqlar da daxil edilməklə, uzaqlaşdırma və köçürülmə zonalarından köçürülmüş uşaqların və ya 18 yaşınadək yeniyetmələrin, habelə 1986-cı il aprelin 26-dan sonra doğulmuş və Çernobıl AES-də qəzanın nəticələrinin ləğv edilməsinin iştirakçısı olmuş, yaxud Çernobıl qəzası nəticəsində zərər çəkmiş və birbaşa radioaktiv şüalanmaya məruz qalmaq ehtimalı olmuş valideynlərin birindən olan uşaqların, qaçqın və ya məcburi köçkün (ölkə daxilində köçürülmüş şəxs) statusu almış müvəqqəti yaşayış yerində və xəstəxanalarda qocaların, uşaqların, əlillərin, aztəminatlı və ailə başçısını itirmiş şəxslərin, HİV/AİDS-lə xəstələnmiş vətəndaşların, orqan və (və ya) toxumaların götürülməsi zamanı əməliyyatla bağlı donorların dərman

preparatları ilə təmin olunması Qaydası”, 187 nömrəli 17 noyabr 2011-ci il tarixli Qərarı ilə “İnsan orqan və (və ya) toxumalarının transplantasiyası Qaydaları və Şərtləri”, “İnsan orqan və (və ya) toxumalarının transplantasiyasının həyata keçirildiyi ixtisaslaşdırılmış tibb müəssisələrinin Siyahısı”, “Transplantasiya üçün insan orqan və (və ya) toxumalarının götürülməsi, hazırlanması (konservasiyası) və saxlanması Qaydaları” və “İnsan orqan və (və ya) toxumalarının transplantasiyasının zəruriliyi barədə tibbi qərarın qəbul edilməsi Qaydası” təsdiq edilmişdir.

**Tibbi sığorta barədə qanunvericilik aktlarına dair**
**BƏLƏDÇİ QAYDALAR**

28 oktyabr 1999-cu il tarixdə “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun əhalinin tibbi sığortasının təşkilati, hüquqi və iqtisadi əsaslarını müəyyən edir, tibbi sığortanın subyektləri arasındakı münasibətləri tənzimləyir.

Qanuna uyğun olaraq tibbi sığorta sağlamlığın qorunması sahəsində əhalinin sosial müdafiəsi forması olmaqla, sığorta hadisəsi baş verdikdə Azərbaycan Respublikası əhalisinin tibbi və dərman yardımı almasına təminat verir. Tibbi sığorta icbari və könüllü formada həyata keçirilir. İcbari tibbi sığorta dövlət sosial sığortasının tərkib hissəsi olmaqla, icbari tibbi sığorta proqramına müvafiq həcmdə əhalinin tibbi və dərman yardımı almasını təmin edir. Könüllü tibbi sığorta icbari tibbi sığorta proqramında müəyyənləşdirildiyindən əlavə könüllü tibbi sığorta müqaviləsi əsasında əhalinin tibbi və digər xidmətlər almasını təmin edir.

Tibbi sığortanın subyektləri sığorta olunanlar, sığorta edənlər, tibbi sığorta təşkilatları, tibb müəssisələri və qanunvericilikdə müəyyən olunmuş qaydada fərdi tibbi fəaliyyətlə məşğul olan şəxslərdir.

Tibbi sığorta müqaviləsi – qanunvericilikdə müəyyən olunmuş qaydada sığorta edənlə tibbi sığorta təşkilatları arasında bağlanan və sığorta olunana tibbi sığorta proqramına uyğun olaraq göstərilən tibbi yardımın maliyyələşdirilməsini və təşkilini müəyyən edən, sığorta olunanın digər mənafelərini müdafiə edən yazılı sazişdir.

Tibbi sığorta şəhadətnaməsi – sığorta olunana yaşayış yerindən asılı olmayaraq Azərbaycan Respublikasının bütün ərazisində, habelə Azərbaycan Respublikası ilə tibbi sığorta sahəsində müqavilə bağlayan digər dövlətin ərazisində tibbi sığorta proqramında göstərildiyindən az olmayan həcmdə tibbi yardım almağa təminat verən sənəddir.

Sığorta edən müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Nazirlər Kabineti) müəyyən etdiyi qaydada tibbi sığorta müqaviləsi bağlamaq və ya onu ləğv etmək, tibbi sığorta

təşkilatını sərbəst seçmək, tibbi sığorta müqaviləsinin şərtlərinin yerinə yetirilməsinə nəzarət etmək hüquqlarına malikdir.

Sığorta edən icbari tibbi sığorta proqramına uyğun olaraq sığorta haqlarını vaxtında ödəmək, sığorta olunanların sağlamlığının vəziyyətinin göstəriciləri haqqında tibbi sığorta təşkilatına məlumat vermək, sığorta haqlarının tam məbləğdə və vaxtında ödənilməsi barədə müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikasının Maliyyə Nazirliyi) məlumat vermək vəzifələrini yerinə yetirir.

İcbari tibbi sığorta proqramı vətəndaşlara göstərilən tibbi xidmətin şərtlərini, növünü, həcmini müəyyən edir və müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən təsdiq edilir.

Tibbi sığorta təşkilatı – mülkiyyət formasından asılı olmayaraq tibbi sığortanı həyata keçirmək üçün qanunvericilikdə müəyyən olunmuş qaydada xüsusi razılıq almaqla fəaliyyət göstərən və müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilən zəruri nizamnamə fonduna malik olan sığorta təşkilatıdır. Tibbi sığorta təşkilatları səhiyyə sisteminə daxil deyil. Müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi və onun yerli orqanları) və tibb müəssisələri tibbi sığorta təşkilatının təsisçiləri ola bilməzlər.

Tibbi sığorta sistemində sığorta olunan vətəndaşlar tibbi sığorta şəhadətnaməsini aldıqları andan qanunvericilikdə müəyyən olunmuş hüquqlardan istifadə etmək, tibbi sığorta müqaviləsi ilə müəyyən edilən tibbi yardım növlərinə və həcminə uyğun olaraq tibbi sığorta sisteminə daxil olan tibb müəssisələrindən hər hansı birini və həkimi seçmək, profilaktik yardım da daxil olmaqla, Azərbaycan Respublikasının bütün ərazisində icbari tibbi sığorta proqramındakından az olmayan həcmdə tibbi yardım almaq, icbari tibbi sığorta müqaviləsinin şərtlərinə uyğun olan tibbi xidmətdən istifadə etmək, tibbi sığorta müqaviləsinə əsasən müraciət etdiyi tibb müəssisəsindən sağlamlığının vəziyyəti, eləcə də tətbiq olunan müalicə metodları və onların nəticələri barədə məlumat almaq, sığorta edənə, tibbi sığorta təşkilatına, tibb müəssisəsinə, tibbi sığorta müqaviləsinin şərtlərindən asılı olmayaraq, onların təqsiri üzündən

vurulmuş zərərin ödənilməsi də daxil olmaqla, qanunvericilikdə müəyyən olunmuş qaydada iddia qaldırmaq, könüllü tibbi sığorta müqaviləsinin şərtlərində müəyyən edilmişsə, istifadə edilməyən sığorta haqqının bir hissəsini geri almaq hüquqlarına malikdirlər.

Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər tibbi sığorta sistemində Azərbaycan Respublikasının vətəndaşları ilə eyni hüquq və vəzifələrə malikdirlər. Azərbaycan Respublikasında əcnəbilər tibbi sığorta sahəsində, Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə başqa qaydalar nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə eyni hüquq və vəzifələrə malikdirlər.

Tibbi sığorta təşkilatı tibbi sığorta müqavilələri üzrə tibbi yardım və xidmətlər göstərilməsi üçün tibb müəssisəsini seçmək, tibb müəssisələrinin akkreditasiyasında iştirak etmək, tibbi xidmətlər üçün tariflərin müəyyənləşdirilməsində iştirak etmək, tibb müəssisələri tərəfindən müqavilənin şərtlərinin pozulduğu hallarda tibbi xidmətlərə çəkilən xərcləri qismən ödəmək, tibb müəssisəsinin və (və ya) tibb işçisinin təqsiri üzündən sığorta olunana vurulmuş zərərin ödənilməsi üçün qanunvericilikdə müəyyən edilmiş qaydada məhkəməyə müraciət etmək, zərərin sığorta olunan tərəfindən vurulduğu hallar istisna olmaqla, vətəndaşın sağlamlığına vurulmuş zərər üçün cavabdeh olan fiziki və ya hüquqi şəxslərdən qanunvericilikdə müəyyən olunmuş qaydada sığorta olunana tibbi yardım göstərilməsinə sərf olunmuş xərclərin ödənilməsini tələb etmək hüquqlarına malikdir.

Tibbi sığorta təşkilatı tibbi sığorta olunanlara tibbi sığorta proqramına uyğun tibbi yardım göstərilməsi üçün qanunvericilikdə müəyyənləşdirilmiş qaydada fəaliyyət göstərən tibb müəssisələri ilə müqavilələr bağlamaq, tibbi sığorta müqaviləsinin qüvvəyə mindiyi andan sığorta olunana tibbi sığorta şəhadətnaməsini vermək, tibb müəssisələrinə tibbi xidmətin haqqını müqavilədə nəzərdə tutulmuş qaydada və müddətdə ödəmək, könüllü tibbi sığorta müqaviləsində nəzərdə tutulmuşsa, sığorta haqlarının bir hissəsini sığorta olunana qaytarmaq, müqavilənin şərtlərinə uyğun olaraq tibbi yardımın həcminə, müddətinə və keyfiyyətinə nəzarət etmək, sığorta olunanın mənafelərini müdafiə etmək vəzifələrini yerinə yetirir.

Mülkiyyət formasından asılı olmayaraq qanunvericilikdə müəyyən olunmuş qaydada fəaliyyət göstərən tibb müəssisələrinin və fərdi tibbi fəaliyyətlə məşğul olan şəxslərin tibbi sığorta sistemində tibbi xidmətlər göstərmək hüquqları vardır.

Tibbi sığorta proqramlarını yerinə yetirən tibb müəssisələrinin tibbi sığorta sistemindən kənarda da tibbi yardım göstərmək hüququ vardır. Qanunvericilikdə müəyyən olunmuş qaydada tibbi sığorta proqramını yerinə yetirən tibb müəssisələrinin və ya fərdi tibbi fəaliyyətlə məşğul olan şəxslərin tibbi sığorta təşkilatını seçmək hüququ vardır. Tibbi sığorta sistemində mülkiyyət formasından asılı olmayaraq tibb müəssisələri sığorta olunanların əmək qabiliyyətinin müvəqqəti itirilməsini təsdiq edən sənəd vermək hüququna malikdirlər.

İcbari tibbi sığorta sistemində tibbi xidmətlər üçün tariflər müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilir. Könüllü tibbi sığorta üzrə tibbi xidmətlər üçün tariflər sığorta təşkilatı ilə bu xidmətləri göstərən tibb müəssisəsi (və ya fərdi tibbi fəaliyyətlə məşğul olan şəxs) arasında razılaşmaya əsasən müəyyən edilir.

30 dekabr 1999-cu il tarixdə “Tibbi sığorta haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə “Tibbi sığorta haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş tibbi sığorta müqaviləsinin formasının və bağlanma qaydasının, tibbi sığortanın ayn-ayrı növlərinə aid qaydaların və icbari tibbi sığorta münasibətlərinin şamil edilmədiyi şəxslərin kateqoriyalarının, tibbi sığorta şəhadətnaməsinin formasının və onun tətbiqi qaydalarının, icbari tibbi sığorta haqlarının məbləği və ödənilmə qaydasının müəyyən edilməsi, icbari tibbi sığorta proqramının təsdiq edilməsi və icbari tibbi sığorta sistemində tibbi xidmətlər üçün tariflərin müəyyən edilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 nömrəli 19 yanvar 1998-ci il tarixli Qərarı ilə “Sığorta fəaliyyətinə xüsusi razılıq (lisenziya) verilməsi Qaydaları”, 58 nömrəli 6 mart 2001-ci il tarixli Qərarı ilə “Tibbi sığorta müqaviləsinin forması və bağlanma Qaydası” və 49 nömrəli 25 mart 2002-ci il tarixli Qərarı ilə “Tibbi

sığorta şəhadətnaməsinin forması və onun tətbiqi Qaydaları" təsdiq edilmişdir.

27 dekabr 2007-ci il tarixdə "Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi"nin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanmışdır.

10 yanvar 2008-ci il tarixdə "Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanmışdır.

Həmin Sərəncamla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə bu "Konsepsiya"nın həyata keçirilməsi ilə bağlı 2008-2012-ci illəri əhatə edən Tədbirlər Planının hazırlanıb Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq edilməsi tapşırılmışdır.

6 avqust 2008-ci il tarixdə "Tibbi sığorta haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1999-cu il 30 dekabr tarixli 241 nömrəli Fərmanına dəyişikliklər və əlavələr edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 179 nömrəli 11 avqust 2008-ci il tarixli Qərarı ilə "2008-2012-ci illərdə Azərbaycan Respublikasında səhiyyənin maliyyələşdirilməsi sisteminin islahatı və icbari tibbi sığortanın tətbiqi Konsepsiyasının həyata keçirilməsi üzrə Tədbirlər Planı" təsdiq edilmişdir.

**Özəl tibb fəaliyyəti barədə qanunvericilik aktlarına dair**
**BƏLƏDÇİ QAYDALAR**

30 dekabr 1999-cu il tarixdə "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun özəl tibb fəaliyyətinin subyektləri arasında münasibətləri tənzimləyir, onların hüquq və vəzifələrini, bu fəaliyyətin təşkilati-hüquqi əsaslarını müəyyən edir.

Özəl tibb müəssisəsi qanunvericiliklə müəyyən olunmuş qaydada Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri tərəfindən yaradıla bilər. Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələrdə digər qaydalar nəzərdə tutulmayıbsa, xarici ölkələrin hüquqi və fiziki şəxsləri, eləcə də Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər tərəfindən özəl tibb müəssisələri qanunvericiliklə müəyyən olunmuş qaydada yaradıla bilər. Özəl tibb müəssisəsi tibbi fəaliyyətin müəyyən növləri üzrə qanunvericiliyə uyğun olaraq verilən xüsusi razılıq olduqda və tibbi fəaliyyətin hər bir növü üzrə müvafiq sertifikatı olan mütəxəssislərlə əmək müqaviləsi bağladıqda özəl tibbi fəaliyyətlə məşğul ola bilər.

Ali və ya orta tibb təhsili olan, qanunvericiliklə müəyyən olunmuş qaydada tibbi fəaliyyətin müəyyən növünə uyğun xüsusi razılıq və attestasiyadan keçdikdən sonra müvafiq sertifikat alan, habelə müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Nazirlər Kabineti) müəyyən etdiyi tələblərə uyğun tibbi iş stajı olan Azərbaycan Respublikasının vətəndaşları özəl tibbi praktika ilə məşğul ola bilərlər. Əcnəbilərin və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin özəl tibbi praktika ilə məşğul olması üçün şərtlər müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilir.

Özəl tibb müəssisəsi və özəl tibbi praktika ilə məşğul olan şəxs tərəfindən tibbi yardım göstərilməsi barədə müqavilə bu yardımın növlərini, həcmini və göstərilmə şərtlərini əks etdirməlidir.

Özəl tibb müəssisələrinin və özəl tibbi praktika ilə məşğul olan şəxslərin verdiyi sənədlər və rəylər dövlət nümunəli tibbi sənədlərlə eyni hüquqi qüvvəyə malikdir. Müvafiq icra hakimiyyəti orqanı

(Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi) ödəniş əsasında özəl tibb müəssisələrini, özəl tibbi praktika ilə məşğul olan şəxsləri əmək qabiliyyətinin müvəqqəti itirilməsi barədə vərəqələr, doğum və ölüm haqqında arayışlar, güclü təsir göstərən, zəhərli və narkotik maddələrin resept blankları da daxil olmaqla, ciddi hesabatlı dövlət nümunəli tibbi sənədlərin blankları ilə təmin edir. Özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslər Azərbaycan Respublikasının normativ-hüquqi aktlarında göstərilən bütün statistik qeydiyyat və hesabatları aparmağa borcludurlar və onların doğruluğuna görə məsuliyyət daşıyırlar.

Özəl tibb fəaliyyəti subyektlərinin vətəndaşlar və təşkilatlarla (o cümlədən, könüllü tibbi sığorta üzrə tibbi xidmətlər göstərilməsinə dair sığorta təşkilatları ilə) müqavilələr çərçivəsində göstərdikləri tibbi xidmətlərin tarifləri tərəflər arasında razılaşmaya görə müəyyənləşdirilir.

Özəl tibbi praktika ilə məşğul olan şəxslər qanunvericiliklə müəyyən olunmuş qaydada tibbi yardım göstərmək və məsləhətlər vermək, ictimai təhlükəli xəstəliklər istisna olmaqla, siyahısı müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən təsdiq olunan xəstəliklər üzrə tibbi yardım göstərmək, qanunvericiliklə müəyyən olunmuş qaydada xalq təbabətindən istifadə etmək, qanunvericiliklə müəyyən olunmuş qaydada tibbi sənədlər vermək, özəl tibb fəaliyyətini həyata keçirmək üçün bütün tibb müəssisələrindən və özəl tibbi praktika ilə məşğul olan digər şəxslərdən məlumat almaq, pasiyentin müayinələrinin nəticələri ilə tanış olmaq, məsləhətçi kimi bütün növbəti müalicə mərhələlərində iştirak etmək, peşə fəaliyyətini həyata keçirmək üçün normativ sənədlərlə tanış olmaq, ciddi hesabatlı dövlət nümunəli tibbi sənədlərin blanklarından istifadə etmək, tibbi yardım göstərmək üçün özəl tibbi praktika ilə məşğul olan digər fiziki şəxslərlə birgə fəaliyyət göstərmək, dövlət və bələdiyyə mülkiyyətində olan əmlakı, o cümlədən bina, qurğu və avadanlıqları müvəqqəti istifadəyə götürmək, peşə fəaliyyətini təmin etmək üçün əmək müqaviləsi əsasında işçilər cəlb etmək hüquqlarına malikdirlər.

Özəl tibbi praktika ilə məşğul olan şəxslər tibbi yardımın şərtlərinə və qaydalarına əməl etmək, təxirəsalınmaz tibbi yardıma ehtiyacı olan şəxslərə pulsuz tibbi yardım göstərmək, xəstənin

sağlamlıq vəziyyətini, ona göstərilən tibbi xidmətlərin həcmini və onların nəticələrini əks etdirən tibbi sənədləşmələri müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi) tərəfindən müəyyən olunmuş qaydada həyata keçirmək, tibbi statistik hesabatları qanunvericilikdə müəyyən olunmuş qaydada və vaxtında təqdim etmək, xəstəyə onun sağlamlıq vəziyyəti, müalicənin müddəti, forma və məqsədləri, göstərilən xidmətlərin həcmi və qiyməti, habelə gözlənilən nəticələr və müəyyən riskin mümkünlüyü barədə məlumat vermək, özəl tibbi praktikanın həyata keçirilməsinə hüquqi əsas verən sənədlərlə xəstəni tanış etmək, həkim sirrinə əməl etmək, zəruri hallarda xəstənin vəziyyəti barədə başqa mütəxəssislərlə məsləhətləşmək, xəstəni tibb müəssisəsinə göndərmək, qanunvericiliklə müəyyən olunmuş müddətlərdə öz vəsaiti hesabına, göstərilən tibbi yardım maliyyələşdirilən müəssisələrlə müqavilələrdə bu nəzərdə tutulmayıbsa, öz ixtisasını artırmaq və ya yenidən hazırlıq keçməklə peşə sertifikatı almaq vəzifələrini yerinə yetirirlər.

Özəl tibb fəaliyyətinin subyektləri qanunvericiliklə müəyyən olunmuş qaydada xalq təbabətindən istifadə üsullarını tətbiq edə bilərlər.

6 mart 2000-ci il tarixdə "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş özəl tibbi praktika ilə məşğul olmaq üçün zəruri olan tibbi iş stajının və müvafiq sertifikat alınması qaydasının, əcnəbilərin və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin özəl tibbi praktika ilə məşğul olması üçün şərtlərin, özəl tibb müəssisələri və özəl tibbi praktika ilə məşğul olan şəxslərə dövlət təminatı və səhiyyənin məqsədyönlü proqramlarında iştirak etmək hüququ verən müsabiqələrin keçirilmə qaydalarının müəyyən edilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 782 nömrəli 2 sentyabr 2002-ci il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi haqqında Qaydalar" təsdiq edilmişdir.

26 dekabr 2006-cı il tarixdə "Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi sahəsində əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 176 nömrəli 7 noyabr 2001-ci il tarixli Qərarı ilə "Əcnəbilərin və Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin özəl tibbi praktika ilə məşğul olması üçün Şərtlər" təsdiq edilmiş, 177 nömrəli 7 noyabr 2001-ci il tarixli Qərarı ilə özəl tibbi praktika ilə məşğul olmaq üçün zəruri olan tibbi iş stajı həkimlər üçün 5 ildən, orta tibb işçiləri üçün isə 3 ildən az olmayaraq müəyyən edilmiş və "Özəl tibbi praktika ilə məşğul olmaq üçün müvafiq sertifikat alınması Qaydası", 268 nömrəli 5 dekabr 2008-ci il tarixli qərarı ilə "Təbii müalicə ehtiyatlarından, müalicə-sağlamlaşdırma yerlərindən və kurortlardan istifadə Qaydası və rejimi" 49 nömrəli 31 mart 2009-cu il tarixli Qərarı ilə "Tibb fəaliyyəti üzrə lisenziyalaşdırılan işlər və xidmətlərin Siyahısı", 108 nömrəli 8 iyun 2010-cu il tarixli Qərarı ilə "Praktik tibb və ya əczaçılıq fəaliyyəti ilə məşğul olan şəxslərin (işçilərin) sertifikasiyası Qaydası", 234 nömrəli 17 oktyabr 2012-ci il tarixli qərarı ilə "Sanatoriya-kurort müəssisələrində sanitar-gigiyenik Tələblər" və 94 nömrəli 3 aprel 2014-cü il tarixli qərarı ilə "Azərbaycan Respublikasında ticarət, ictimai iaşə, məişət və digər növ xidmət Qaydaları" təsdiq edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 01 sentyabr 2008-ci il tarixli 119 saylı əmri ilə "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müəssisələrində istifadə olunan həkim ixtisaslarının siyahısı", "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müəssisələrində vəzifələrin nomenklaturası" və "Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin müəssisələrində vəzifələrin tutulmasının ixtisaslar üzrə müəyyənləşdirilməsi", 07 aprel 2009-cu il tarixli 37 saylı əmri ilə "Tibb müəssisələrində sanitariya-epidemioloji tələblərə dair Qaydalar", 15 aprel 2010-cu il tarixli 21 saylı əmri ilə "Stomatoloji tibb müəssisələrinə (kabinetlərə) dair sanitariya-gigiyena tələbləri", 19 sentyabr 2012-ci il tarixli 70 saylı əmri ilə "Səhiyyə Nazirliyinin tabeliyində olan tibb müəssisələrinin nümunəvi əsasnamələrinin (nizamnamələrinin) siyahısı" və "Tibb, əczaçılıq və digər ixtisaslar üzrə işçilərin nümunəvi vəzifə təlimatlarının siyahısı" təsdiq edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyi kollegiyasının 11 mart 2013-cü il tarixli 08 saylı qərarı ilə “Doğum evlərində (şöbələrində) doğuşayardım işinin təşkili haqqında Təlimat”, 07 may 2013-cü il tarixli 19 saylı qərarı ilə “Özəl tibb fəaliyyəti subyektləri tərəfindən göstərilən tibbi xidmətlərin və həkim resepti olmadan buraxılan dərman vasitələrinin reklamına rəy verilməsi Qaydası” və 03 fevral 2014-cü il tarixli 02 saylı qərarı ilə “Qadın məsləhətxanalarında, ambulator-poliklinik tibb müəssisələrində antenatal xidmətin təşkili haqqında Təlimat” təsdiq edilmişdir.

## Yoluxucu xəstəliklərin immunoprofilaktikası barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR

14 aprel 2000-ci il tarixdə "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun Azərbaycan Respublikası əhalisinin sağlamlığının qorunması və sanitariya-epidemioloji salamatlığının təmin edilməsi məqsədi ilə yoluxucu xəstəliklərin immunoprofilaktikası sahəsində həyata keçirilən dövlət siyasətinin hüquqi və iqtisadi əsaslarını müəyyən edir. İmmunoprofilaktika sahəsində dövlət siyasəti yoluxucu xəstəliklərin yayılmasının məhdudlaşdırılmasına və aradan qaldırılmasına yönəldilmişdir.

Qanuna uyğun olaraq immunoprofilaktikanın həyata keçirilməsini müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi) təmin edir. Siyahısı müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilən yoluxucu xəstəliklərin baş verməsi təhlükəsi olduqda epidemik göstərişlərə görə profilaktik peyvəndlər məcburi aparılır. Profilaktik peyvəndlər dövlət və bələdiyyə tibb müəssisələrində və ya özəl tibb fəaliyyəti üçün qanunvericiliklə müəyyən olunmuş qaydada xüsusi razılıq alan hüquqi və fiziki şəxslər tərəfindən aparılır. Profilaktik peyvəndlər vətəndaşların razılığı əsasında aparılır.

Profilaktik peyvəndlərin təqvimi vətəndaşlara profilaktik peyvəndlərin aparılması qaydasını, müddətlərini, peyvənd aparılması zəruri olan xəstəliklərin siyahısını müəyyən edən və müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi) tərəfindən təsdiq olunan sənəddir.

İmmunoprofilaktika sahəsində vətəndaşların profilaktik peyvəndlərin aparılmasının zəruriliyi, onlardan imtina edilməsinin nəticələri, mümkün postvaksinal fəsadlar haqqında tibb işçilərindən tam və obyektiv məlumat almaq, mülkiyyət formasından asılı olmayaraq tibb müəssisələrini və ya özəl tibb fəaliyyəti ilə məşğul şəxsləri seçmək, dövlət və bələdiyyə tibb müəssisələrində profilaktik peyvəndlərdən əvvəl büdcə vəsaitləri hesabına tibbi baxışdan keçmək

və müayinə olunmaq, epidemik göstərişlərə görə profilaktik peyvənd olunmaq, postvaksinal fəsadlar baş verdikdə müalicə olunmaq, real əks-göstərişlər olduqda epidemik göstərişlərə görə profilaktik peyvəndlərdən imtina etmək hüquqları vardır.

17 iyun 2000-ci il tarixdə "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə "Yoluxucu xəstəliklərin immunoprofilaktikası haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılma müddətinin və qaydasının, profilaktik peyvəndlərin məcburi aparılması tələb olunan işlərin siyahısının, ölümə səbəb olan postvaksinal fəsadlara görə birdəfəlik müavinət almaq hüququ olan ailə üzvlərinin siyahısının və həmin müavinətin həcminin müəyyən edilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 87 nömrəli 3 may 2001-ci il tarixli Qərarı ilə "Epidemik göstərişlərə görə profilaktik peyvəndlərin aparılma müddəti və Qaydası", 110 nömrəli 2 iyun 2001-ci il tarixli Qərarı ilə "Profilaktik peyvəndlərin məcburi aparılması tələb olunan işlərin Siyahısı", 121 nömrəli 6 iyul 2001-ci il tarixli Qərarı ilə "Karantin və digər məhdudiyyət tədbirləri tətbiq olunan yoluxucu xəstəliklərin Siyahısı", 163 nömrəli 12 oktyabr 2001-ci il tarixli Qərarı ilə "Ölümə səbəb olan postvaksinal fəsadlara görə birdəfəlik müavinət almaq hüququ olan ailə üzvlərinin Siyahısı" və 225 nömrəli 26 noyabr 2010-cu il tarixli qərarı ilə "2011-2015-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı" təsdiq edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 13 nömrəli 12 yanvar 2011-ci il tarixli əmri ilə "2011-2015-ci illər üçün yoluxucu xəstəliklərin immunoprofilaktikasına dair Tədbirlər Proqramı"nın icrası üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilmişdir.

## Azərbaycan Respublikasında vərəmlə mübarizə barədə qanunvericilik aktlarına dair
## BƏLƏDÇİ QAYDALAR

2 may 2000-ci il tarixdə "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun əhalinin vərəmdən mühafizəsinin təşkilati-hüquqi əsaslarını, vərəm xəstəliyinə tutulmuş şəxslərin hüquq və vəzifələrini müəyyən edir. Bu Qanun Azərbaycan Respublikasının vətəndaşlarına, əcnəbilərə, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün hüquqi şəxslərə şamil edilir.

Vərəm xəstəliyinə tutulmuş şəxslər Azərbaycan Respublikasının Konstitusiyasında nəzərdə tutulmuş bütün hüquq və azadlıqlara malikdirlər. Vərəm xəstəliyinə tutulmuş şəxslər onlara vərəm əleyhinə yardım göstərilərkən vərəm əleyhinə yardım sahəsində hüquqları, habelə xəstəliyin xarakteri, tətbiq edilən müalicə metodları haqqında ətraflı məlumat almaq, tibbi göstərişlər əsasında ambulator, stasionar və sanatoriya-kurort şəraitində tam həcmdə tibbi yardım almaq, vərəmlə ilk dəfə xəstələnmiş və ya vərəmin residivi olan şəxslərin əmək qabiliyyətinin itirildiyi gündən başlayaraq, tibbi-sosial və epidemioloji göstərişlər nəzərə alınmaqla, 12 ayadək müddətdə əmək qabiliyyətinin itirilməsi barədə vərəq almaq hüquqlarına malikdirlər.

15 iyul 2000-ci il tarixdə "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş "Vərəm xəstəliyinin yayılmasının qarşısının alınması üzrə Milli Proqram"ın qəbul edilməsinin təmin edilməsi, ətrafdakıları vərəmlə yoluxdurmaq təhlükəsi olan şəxslərin işləməsi qadağan olunan peşə və vəzifələrin siyahısının, vərəm xəstəliyinə tutulmuş işləməyən şəxslərə

müavinətin verilmə qaydasının və şərtlərinin müəyyən edilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 133 nömrəli 13 oktyabr 2003-cü il tarixli Qərarı ilə "Daimi yaşayış yeri olmayan, ətrafdakılar üçün təhlükə törədən vərəm xəstəliyinə tutulmuş şəxslər üçün təşkil olunan xüsusi xəstəxana-internatlara xəstələrin göndərilməsi və qəbulu Qaydası", 157 nömrəli 6 dekabr 2003-cü il tarixli Qərarı ilə "Ətrafdakıları vərəmlə yoluxdurmaq təhlükəsi olan şəxslərin işləməsi qadağan olunan peşə və vəzifələrin Siyahısı", 226 nömrəli 26 noyabr 2010-cu il tarixli Qərarı ilə "2011-2015-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı" təsdiq edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 10 nömrəli 12 yanvar 2010-cu il tarixli əmri ilə "2011-2015-ci illər üçün vərəmlə mübarizə üzrə Tədbirlər Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilmişdir.

## Psixiatriya yardımı barədə qanunvericilik aktlarına dair
## BƏLƏDÇİ QAYDALAR

12 iyun 2001-ci il tarixdə "Psixiatriya yardımı haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun Azərbaycan Respublikasında psixiatriya yardımı göstərilməsi sahəsində yaranan münasibətləri tənzimləyir, bu sahədə hüquqi və fiziki şəxslərin hüquq və vəzifələrini müəyyən edir. Azərbaycan Respublikasının ərazisində psixiatriya yardımı alan, habelə psixiatriya yardımı göstərən hüquqi və fiziki şəxslərə şamil olunur. Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslər psixiatriya yardımı üzrə bu Qanunda Azərbaycan Respublikasının vətəndaşları üçün nəzərdə tutulmuş bütün hüquqlardan istifadə edirlər.

Psixi pozuntusu olan şəxslər ləyaqətlərinin alçaldılmasına yol verilməməsi və humanist münasibət bəslənilməsi, dövlət tibb müəssisələrində sanitariya-gigiyena tələblərinə cavab verən şəraitdə pulsuz psixiatriya yardımı almaq, öz hüquqları barədə, habelə psixi pozuntu və tətbiq edilən müalicə üsulları haqqında məlumat almaq, psixiatriya stasionarında müayinə və müalicə üçün zəruri olan müddətdə saxlanılmaq, tibbi göstərişlər əsasında mümkün olan bütün müalicə növlərini almaq, təxirəsalınmaz psixiatriya yardımı göstərilməsi, habelə məcburi və qeyri-könüllü hospitallaşdırma halları istisna olmaqla, psixiatriya yardımı göstərmək hüququ olan hər hansı mütəxəssisi (onun razılığı ilə) və tibb müəssisəsini seçmək, konsilium və məsləhətləşmələr aparılmasını tələb etmək, qanunvericilikdə müəyyən olunmuş qaydada vəkilin, qanuni nümayəndələrin və ya digər şəxslərin köməyindən istifadə etmək hüquqlarına malikdirlər. Şəxsin tibbi vasitə və üsulların sınaqdan keçirilməsinə, elmi-tədqiqat işlərinə, yaxud tədris prosesi, foto-video və kino çəkilişləri obyektləri kimi istifadəyə cəlb olunması yalnız onun özünün və ya qanuni nümayəndəsinin razılığı əsasında mümkündür və həmin şəxs istənilən vaxt bundan imtina edə bilər.

Psixiatriya müayinələrinin və ekspertizalarının həyata keçirilməsi zamanı psixi pozuntunun diaqnozu yalnız müasir diaqnostika prinsiplərinə və beynəlxalq təsnifata uyğun olaraq həkim-psixiatr tərəfindən təyin edilir. Şəxsin özünə və (və ya) ətrafdakılara qarşı

təcavüzkar hərəkət etdiyi aşkar olunarsa, həkim-psixiatr, o cümlədən təcili yardım müəssisəsinin həkimi şəxsin özünün və ya qanuni nümayəndəsinin razılığı (xahişi) olmadan psixiatriya müayinəsi haqqında qərarı dərhal qəbul edir və qərar tibbi sənədə yazılmaqla rəsmiləşdirilir.

Psixiatriya stasionarında müayinə və müalicə olunan pasiyentin müayinə, müalicə və stasionardan çıxarılma məsələləri barədə bilavasitə psixiatriya müəssisəsinin baş həkiminə müraciət etmək və onun bu Qanunla müəyyən edilmiş hüquqlarına əməl olunmasını tələb etmək, ərazinin baş psixiatrına, müvafiq icra hakimiyyəti orqanlarına, prokurorluğa, məhkəməyə və vəkilə maneəsiz müraciət etmək, qanuni nümayəndəsi, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), vəkil və din xadimi ilə təklikdə görüşmək, ümumtəhsil məktəbinin proqramı, yaxud sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi proqram üzrə təhsil almaq hüquqları var.

Pasiyentin, habelə başqa şəxslərin sağlamlığını və təhlükəsizliyini təmin etmək məqsədi ilə həkim-psixiatrın tövsiyəsi əsasında psixiatriya müəssisəsinin müdiriyyəti tərəfindən pasiyentin nəzarətsiz məktublaşmaq, bağlama, banderol və pul baratları almaq və göndərmək, pul və digər maddi vəsaitlərdən sərbəst istifadə etmək, telefondan və digər rabitə vasitələrindən istifadə etmək, yaxınları ilə görüşmək hüquqları məhdudlaşdırıla bilər.

Şəxs psixiatriya stasionarında olduğu bütün dövr ərzində əmək qabiliyyəti olmayan sayılır və qanunvericilikdə müəyyən olunmuş qaydada müavinət, yaxud ümumi əsaslarla pensiya almaq hüququna malikdir.

Psixiatriya yardımını dövlət və qanunvericilikdə müəyyən olunmuş qaydada fəaliyyət göstərən özəl psixiatriya (psixonevroloji) müəssisələri, həmçinin ilkin tibbi yardım göstərən tibb müəssisələrinin həkimləri və özəl tibbi praktika ilə məşğul olan həkim-psixiatrlar göstərirlər.

Ali tibbi təhsili və müvafiq diplomu olan və qanunvericilikdə müəyyən edilmiş qaydada ixtisaslarını təsdiq etmiş həkim-psixiatrlar psixiatriya yardımı fəaliyyəti ilə məşğul olmaq hüququna malikdirlər.

İlkin tibbi yardım göstərən tibb müəssisələrinin həkimləri yalnız bu müəssisələrdə müalicəsinə icazə verilən xəstəlikləri (psixi pozuntuları) müalicə edə bilərlər.

3 sentyabr 2001-ci il tarixdə “Psixiatriya yardımı haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə “Psixiatriya yardımı haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş fəaliyyətin məhdudlaşdırılması tələb olunan peşə növlərinin və yüksək təhlükə mənbəyi ilə bağlı işlərin siyahısının təsdiq edilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 23 nömrəli 15 fevral 2003-cü il tarixli Qərarı ilə “Fəaliyyətin məhdudlaşdırılması tələb olunan ayrı-ayrı peşə növlərinin və yüksək təhlükə mənbəyi ilə bağlı işlərin Siyahısı” təsdiq edilmişdir.

**Narkoloji xidmət və nəzarət barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR**

29 iyun 2001-ci il tarixdə “Narkoloji xidmət və nəzarət haqqında” Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun narkoloji xəstəliklərin və onların doğurduğu mənfi tibbi və sosial nəticələrin, habelə bu xəstəliklərə düçar olmuş və onların ətrafında olan şəxslərə ziyanın vurulması hallarının qarşısını almaq məqsədilə narkoloji xidmət və nəzarət sahəsində həyata keçirilən tədbirləri müəyyən edir və tənzimləyir.

Qanuna uyğun olaraq narkoloji xidmətin və nəzarətin əsas istiqamətlərini narkoloji yardım, sosial, inzibati və xəbərdaredici tədbirlər təşkil edir. Azərbaycan Respublikasının ərazisində hər bir şəxsin Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada insan psixikasına təsir göstərən maddələr, bu maddələrdən istifadə edilməsinin ailə və cəmiyyət üçün doğurduğu nəticələr barəsində ətraflı məlumat almaq hüququ vardır. Narkoloji xəstələrə onların maddi vəziyyətindən asılı olmayaraq narkoloji yardımın göstərilməsinə, habelə bu şəxslərin sağlamlığı üzərində ixtisaslaşdırılmış tibbi nəzarətin həyata keçirilməsinə dövlət tərəfindən təminat verilir. Azərbaycan Respublikasının ərazisində narkoloji xəstələrin müalicəsi bir qayda olaraq könüllülük əsasında həyata keçirilir. 18 yaşına çatmamış şəxs narkoloji tibb müəssisəsinə valideynlərinin və ya onun qanuni nümayəndəsinin razılığı ilə yerləşdirilir. Narkoloji xəstələrin məcburi müalicəsinə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada yalnız məhkəmənin hökmü əsasında yol verilir. Azərbaycan Respublikasının ərazisində narkoloji xəstəliklərin müalicəsi, cəzaçəkmə müəssisələri və istintaq təcridxanaları istisna olmaqla, yalnız narkoloji tibb müəssisələrində həyata keçirilir.

17 sentyabr 2001-ci il tarixdə “Narkoloji xidmət və nəzarət haqqında” Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə “Narkoloji xidmət və nəzarət haqqında” Azərbaycan Respublikasının

Qanununda nəzərdə tutulmuş narkoloji xəstəliklərin siyahısının, peşə növlərinin və vəzifələrin siyahısının və məhdudiyyətin müddətinin, tibbi yoxlamanın aparılması qaydasının, insan həyatı üçün təhlükə yaradan üsullarla narkoloji xəstələrin müalicəsi qaydasının, detoksifikasiyanın keçirilməsi qaydasının, xüsusi müşahidənin aparılması qaydasının, narkoloji yardım sahəsində fəaliyyət göstərmək üçün xüsusi razılığın verilməsi qaydasının, narkoloji tibb müəssisələrində təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi qaydasının, dövlət büdcəsinin vəsaiti hesabına göstərilən narkoloji yardımın minimal standartlarının, narkoloji xəstələrin qeydiyyatının aparılması qaydasını və onların qeydiyyatda olma müddətinin, müayinədən keçmə qaydasının müəyyən edilməsi, fondun əsasnaməsinin təsdiq edilməsi və bunlar barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi, narkoloji xidmət sahəsində sosial tədbirlər haqqında və narkoloji xəstəliklərin profilaktikası üzrə vahid dövlət proqramlarının hazırlanması və Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 120 nömrəli 31 iyul 2002-ci il tarixli Qərarı ilə "İnsan psixikasına təsir göstərən maddələrin sui-istifadəsi ilə əlaqədar detoksifikasiyanın keçirilməsi Qaydası", 130 nömrəli 12 avqust 2002-ci il tarixli Qərarı ilə "İnsan həyatı üçün təhlükə yaradan üsullarla narkoloji xəstələrin müalicəsi Qaydası", 131 nömrəli 12 avqust 2002-ci il tarixli Qərarı ilə "Narkoloji yardımın həyata keçirilməsi zamanı şəxslər üzərində xüsusi müşahidənin aparılması Qaydası", 132 nömrəli 12 avqust 2002-ci il tarixli Qərarı ilə "Narkoloji tibb müəssisələrində təhlükəsizlik tədbirlərinin tətbiq edilməsi Qaydası", 136 nömrəli 19 avqust 2002-ci il tarixli Qərarı ilə "Narkoloji xəstələrin qeydiyyatının aparılması Qaydası", 145 nömrəli 12 sentyabr 2002-ci il tarixli Qərarı ilə "Narkoloji xəstələr üçün fəaliyyət məhdudiyyəti nəzərdə tutulmuş peşə növlərinin və vəzifələrin Siyahısı və məhdudiyyətin müddəti", 163 nömrəli 24 oktyabr 2002-ci il tarixli Qərarı ilə "Narkoloji xəstəliklərin Siyahısı", 186 nömrəli 26 noyabr 2002-ci il tarixli Qərarı ilə "Şəxsin narkoloji xəstəliyə düçar olmasının (narkoloji xəstəliyin diaqnozunun) müəyyən edilməsi və ya təsdiqlənməsi məqsədi ilə tibbi yoxlamanın aparılması Qaydası",

18 nömrəli 8 fevral 2003-cü il tarixli Qərarı ilə “Peşə fəaliyyətinin ayrı-ayrı növləri və yüksək təhlükə mənbəyi ilə bağlı olan fəaliyyətlə məşğul olan şəxslərin dövlət narkoloji tibb müəssisəsində tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi Qaydası” və 180 nömrəli 10 avqust 2012-ci il tarixli Qərarı ilə “Narkoloji yardımın dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi Qaydası” təsdiq edilmişdir.

**Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR**

27 dekabr 2001-ci il tarixdə "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun Azərbaycan Respublikasında yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi il duzun yodlaşdırılması tədbirlərinin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.

Bu Qanun Azərbaycan Respublikasında yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması sahəsində fəaliyyət göstərən bütün fiziki və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi şəxslərə şamil edilir.

Qanuna uyğun olaraq yodlaşdırılmış duzun keyfiyyət və təhlükəsizlik göstəricilərinin standartlar və tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə duzdan götürülmüş nümunələrin ekspertizası müvafiq icra hakimiyyəti orqanı (yodlaşdırılmış duzun keyfiyyət göstəriciləri üzrə Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi, yodlaşdırılmış duzun təhlükəsizlik göstəriciləri üzrə Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi) tərəfindən aparılır.

Qida və yem məqsədi ilə istifadə olunan duz yodlaşdırılmalı, onun keyfiyyəti, təhlükəsizliyi, tərkibindəki yodun miqdarına nəzarət metodları müvafiq standartlar və tələblərə uyğun olmalıdır. Duzun tərkibində yodun miqdarı müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyənləşdirilir. Duzun təmizlənməsi, istehsalı, yodlaşdırılması və satışı sanitar-gigiyenik norma və qaydaların tələblərinə uyğun olaraq həyata keçirilir. Azərbaycan Respublikasına idxal edilən və ya respublikada istehsal olunan yodlaşdırılmış duzun qablaşdırılması, etiketləşdirilməsi, saxlanması, daşınması və satışı müvafiq standartlara və tələblərə əməl edilməklə həyata keçirilir. Yararlılıq müddəti qurtarmış yodlaşdırılmış duzun istifadəsi, təkrar emalı və yenidən yodlaşdırılması qaydaları müvafiq icra hakimiyyəti orqanı

(Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən olunur.

Yodlaşdırılmış duzun keyfiyyət və təhlükəsizlik göstəricilərinin standartlar və tələblərə uyğunluğunu müəyyən etmək məqsədi ilə Azərbaycan Respublikasının ərazisində istehsal olunan yodlaşdırılmış duz qanunvericilikdə müəyyən olunmuş qaydada sertifikatlaşdırılır.

24 avqust 2002-ci il tarixdə "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə duzun tərkibində yodun miqdarının müəyyən edilməsi və "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş yararlılıq müddəti qurtarmış yodlaşdırılmış duzun istifadəsi, təkrar emalı və yenidən yodlaşdırılması qaydalarının təsdiq edilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 200 nömrəli 30 dekabr 2002-ci il tarixli Qərarı ilə qida və yem məqsədi ilə istifadə olunan duzun tərkibində yodun miqdarı 30-50 mkq/q həddində müəyyən edilmişdir.

27 sentyabr 2003-cü il tarixdə "Yod çatışmazlığı xəstəliklərinin kütləvi profilaktikası məqsədi ilə duzun yodlaşdırılması haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

## Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR

23 dekabr 2003-cü il tarixdə "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun Azərbaycan Respublikasında şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısının təşkilati-hüquqi əsaslarını müəyyən edir, bu xəstəliyin profilaktikası və müalicəsi sahəsində yaranan münasibətləri tənzimləyir.

Qanuna uyğun olaraq şəkərli diabet xəstəliyinin profilaktikası və onunla mübarizə ilə bağlı tədbirləri həyata keçirmək məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən "Şəkərli diabet üzrə Dövlət proqramı" hazırlanır və təsdiq edilir. Dövlət proqramının həyata keçirilməsinə dövlət nəzarətini müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikası Prezidentinin Administrasiyası) təmin edir. Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin registri bu şəxslərin qeydiyyatının aparılmasını təmin etmək, şəkərli diabetlə xəstələnmə halları, ağırlaşmaları, əlillik və ölüm halları, müalicə-profilaktika tədbirlərinin səmərəliliyi haqqında sistematik və düzgün məlumat almaq məqsədi ilə müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi) tərəfindən yaradılır.

Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələr) həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısı və miqdarı müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilir. Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya vasitələri və özünənəzarət vasitələri ilə təminatı müvafiq icra hakimiyyəti orqanının (Azərbaycan Respublikasının Nazirlər Kabineti) müəyyən etdiyi qaydada həyata keçirilir.

Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin əmək hüquqları yalnız Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilən işçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən

amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli peşələr (vəzifələr) və iş yerləri üzrə məhdudlaşdırıla bilər.

12 fevral 2004-cü il tarixdə "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin dövlət tibb müəssisələrində müayinəsi və müalicəsinin maliyyələşdirilməsi qaydasının, şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcminin, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin siyahısının və miqdarının, habelə bu preparat və vasitələrlə təminat qaydasının müəyyən edilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 87 nömrəli 13 may 2005-ci il tarixli Qərarı ilə "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) Həcmi, inyeksiya vasitələrinin, insulin və digər şəkərsalıcı dərman preparatlarının, özünənəzarət vasitələrinin Siyahısı və Miqdarı" və "Şəkərli diabet xəstəliyinə tutulmuş şəxslərin insulin və digər şəkərsalıcı dərman preparatları, inyeksiya və özünənəzarət vasitələri ilə təminatı Qaydası", 101 nömrəli 7 iyun 2005-ci il tarixli Qərarı ilə "Şəkərli diabet üzrə Dövlət Proqramı", 222 nömrəli 26 noyabr 2010-cu il tarixli Qərarı ilə "2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı" təsdiq edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 9 nömrəli 12 yanvar 2011-ci il tarixli əmri ilə "2011-2015-ci illər üçün şəkərli diabet üzrə Tədbirlər Proqramı"nın icrası üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilmişdir.

**Qanın, qan komponentlərinin donorluğu və qan xidməti barədə qanunvericilik aktlarına dair**
**BƏLƏDÇİ QAYDALAR**

3 may 2005-ci il tarixdə "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun qanın, qan komponentlərinin donorluğunun inkişafı ilə əlaqədar münasibətləri tənzimləyir, qan xidmətinin təşkilinin əsaslarını müəyyən edir.

Qanuna uyğun olaraq müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən olunmuş qaydada qan xidməti müəssisələrində (qan banklarında) tibbi müayinədən keçən, qanın, qan komponentlərinin donorluğuna heç bir əks-göstərişləri olmayan, 18-65 yaşlı fəaliyyət qabiliyyətli hər bir şəxs qanın, qan komponentlərinin donoru ola bilər. Yaşı 65-dən yuxarı olan şəxslər də həkim rəyi əsasında donor ola bilərlər. Donordan qanın və ya qan komponentlərinin götürülməsinə donorun sağlamlığına heç bir zərər yetirilmədiyi halda yol verilir. Qanın, qan komponentlərinin donorluğu pulsuzdur. Müstəsna hallarda qanın, qan komponentlərinin donorluğu müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilmiş qayda və şərtlərlə pullu ola bilər.

Donorun tibbi müayinədən keçdiyi, qan və ya qan komponentlərini verdiyi gün işdən (təhsildən, xidmətdən) azad edilmək və əlavə istirahət günü almaq, pullu donorluq zamanı verdiyi qan və qan komponentləri üçün haqq almaq, donorluq funksiyasını yerinə yetirməsi ilə əlaqədar olaraq, sağlamlığının pozulması nəticəsində ona dəymiş zərərin əvəzini, o cümlədən müalicə, tibbi-sosial ekspertiza, sosial-əmək reabilitasiya xərclərini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada almaq hüquqları vardır. Donor olmaq istəyən şəxs keçirdiyi və hazırkı xəstəlikləri, həmçinin narkotik vasitələr və psixotrop maddələr qəbul edib-etməməsi barədə düzgün məlumat verməlidir.

Qan xidməti müəssisələrinin (qan banklarının) işçiləri donor barədə bütün məlumatların məxfiliyinə əməl etməlidirlər və yalnız öz

peşə fəaliyyəti dairəsində onlardan zəruri olan həddə istifadə edə bilərlər.

Donorlar tibbi müayinədən keçdikləri, qan və ya qan komponentlərini verdikləri gün, mülkiyyət formasından asılı olmayaraq işlədikləri müəssisə, idarə və təşkilatlarda orta əməkhaqqı saxlanılmaqla işdən azad olunurlar. Qan və ya qan komponentlərini vermiş tələbələr qan verdikləri gün məşğələlərdən, hərbi qulluqçular isə hərbi xidmətin bütün növlərindən azad olunurlar. Qan verən zaman donorlar qan xidməti müəssisələrində (qan banklarında) pulsuz yeməklə təmin olunurlar. Hər dəfə qan və ya qan komponentlərini pulsuz (əvəzsiz) verən işləyən donorlara orta əməkhaqqı saxlanılmaqla əlavə istirahət günü verilir. Həmin istirahət günü donorun arzusu ilə onun illik məzuniyyətinə əlavə edilə və ya il ərzində istənilən vaxtda istifadə edilə bilər.

18 iyul 2005-ci il tarixdə "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə "Qanın, qan komponentlərinin donorluğu və qan xidməti haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qanın, qan komponentlərinin pullu donorluğunun qaydasının və şərtlərinin, qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi qaydasının, donorun tibbi müayinədən keçməsi, qanın, qan komponentlərinin götürülməsi qaydasının, qan xidməti müəssisələrində (qan banklarında) qanın, qan komponentlərinin preparatlarının və konservləşdirici məhlulların yoxlanması qaydasının, qanın, qan komponentlərinin və onlardan hazırlanan preparatların təhlükəsizlik və keyfiyyət göstəricilərinin siyahısının və bu göstəricilərə əməl olunmasına nəzarətin həyata keçirilməsi qaydasının, qanın, qan komponentlərinin və onlardan hazırlanan preparatların xarici təşkilatlarla mübadilə edilməsi və təcili humanitar yardım göstərilməsi üçün Azərbaycan Respublikasından kənara aparılması qaydalarının və təbii fəlakət, qəza və digər fövqəladə vəziyyətlər zamanı qanın, qan komponentlərinin donorluğunun təşkili qaydasının müəyyən edilməsi, donorluq funksiyasını məhdudlaşdıran xəstəliklərin siyahısının və qanın, qan

komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) siyahısının təsdiq edilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 26 nömrəli 28 yanvar 2006-cı il tarixli Qərarı ilə "Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi Qaydası" və "Qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi ilə məşğul olan qan xidməti müəssisələrinin (qan banklarının) Siyahısı", 34 nömrəli 6 fevral 2006-cı il tarixli Qərarı ilə "Qanın, qan komponentlərinin və onlardan hazırlanan preparatların təhlükəsizlik və keyfiyyət göstəricilərinin Siyahısı" və "Qanın, qan komponentlərinin və onlardan hazırlanan preparatların təhlükəsizlik və keyfiyyət göstəricilərinə əməl olunmasına nəzarətin həyata keçirilməsi Qaydası", 43 nömrəli 13 fevral 2006-cı il tarixli Qərarı ilə "Qanın, qan komponentlərinin pullu donorluğunun Qaydası və Şərtləri", 50 nömrəli 16 fevral 2006-cı il tarixli Qərarı ilə "Təbii fəlakət, qəza və digər fövqəladə vəziyyətlər zamanı qanın, qan komponentlərinin donorluğunun təşkili Qaydası", 61 nömrəli 6 mart 2006-cı il tarixli Qərarı ilə "Donorluq funksiyasını məhdudlaşdıran xəstəliklərin Siyahısı" və "Donorun tibbi müayinədən keçməsi, qanın, qan komponentlərinin götürülməsi Qaydası", 92 nömrəli 31 mart 2006-cı il tarixli Qərarı ilə "Qan xidməti müəssisələrində (qan banklarında) qanın, qan komponentlərinin preparatlarının və konservləşdirici məhlulların yoxlanması Qaydası" və 113 nömrəli 22 aprel 2006-cı il tarixli Qərarı ilə "Qanın, qan komponentlərinin və onlardan hazırlanan preparatların xarici təşkilatlarla mübadilə edilməsi və təcili humanitar yardım göstərilməsi üçün Azərbaycan Respublikasından kənara aparılması Qaydaları" təsdiq edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 8 nömrəli 12 yanvar 2011-ci il tarixli əmri ilə "2011-2015-ci illər üçün qanın, qan komponentlərinin donorluğu və qan xidmətinin inkişafına dair Tədbirlər Proqramı"nın icrası üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilmişdir.

**Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR**

28 iyun 2005-ci il tarixdə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi ilə əlaqədar yaranan ictimai münasibətləri tənzimləyir, bu sahədə dövlət orqanlarının, fiziki və hüquqi şəxslərin hüquq və vəzifələrini müəyyən edir.

Qanuna uyğun olaraq Azərbaycan Respublikasının ərazisində narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə yalnız onların tibbi praktikada, elmi-tədqiqat işlərində tətbiqi və cinayətkar fəaliyyətin qarşısının alınması məqsədilə yol verilir.

Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsinə bu Qanunla və ona uyğun olaraq qəbul edilmiş digər qanunvericilik aktları ilə müəyyən edilmiş əsaslarla və qaydada yol verilir.

Tibbi məqsədlərlə istifadə edilən narkotik vasitələrin Azərbaycan Respublikasının ərazisinə gətirilməsi yalnız dövlət orqanları tərəfindən həyata keçirilir.

Narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsində, onların prekursorlarının idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında iştirak edən şəxslərin fəaliyyəti Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi) tərəfindən verilən icazə və ya lisenziya (xüsusi razılıq) əsasında həyata keçirilir.

Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinin və onların prekursorlarının idxalının, ixracının, tranzit nəql edilməsinin və istehsalının tənzimlənməsi məqsədilə Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı: Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin və psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan

prekursorların siyahılarının layihələrini tərtib edir (Azərbaycan Respublikasının Nazirlər Kabineti); bu Qanuna əsasən narkotik vasitələrin və psixotrop maddələrin alınması, saxlanılması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi qaydasını müəyyən edir (Azərbaycan Respublikasının Nazirlər Kabineti); narkotik vasitələrin və psixotrop maddələrin təcrübəvi hazırlanması qaydasını və bu fəaliyyətlə məşğul olan dövlət orqanlarının dairəsini müəyyən edir (Azərbaycan Respublikasının Nazirlər Kabineti); Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi, habelə məhv edilməsi nəzərdə tutulan narkotik vasitələrdən müvafiq icra hakimiyyəti orqanlarının kinoloji xidmətləri tərəfindən narkotik vasitələrin axtarışı üzrə aparılan təlimlərdə istifadə olunması qaydasını müəyyən edir (Azərbaycan Respublikasının Nazirlər Kabineti); narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair Milli İnformasiya Mərkəzini yaradır; narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankını təşkil edir, həmin məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması qaydasını müəyyən edir; narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydasını və şərtlərini, habelə narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi qaydasını müəyyən edir; qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi üçün təhvil verilməsi qaydasını müəyyən edir; narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz

dövriyyəsi, onların prekursorlarının qanunsuz idxalı, ixracı, tranzit nəql edilməsi və istehsalı, habelə narkomanlığın yayılması ilə mübarizə üzrə məqsədləri, vəzifələri və fəaliyyət istiqamətləri, o cümlədən tələb olunan maliyyə vəsaitləri və onların mənbələri göstərilməklə dövlət proqramının layihəsini hazırlayır.

Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə, onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, o cümlədən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə və onların prekursorlarının qanunsuz idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına dair ümummilli məlumat bankı yaradılır və bununla bağlı məlumatlar daxil edilir.

Azərbaycan Respublikasında narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair Milli İnformasiya Mərkəzi yaradılır.

Qanunsuz dövriyyədə olan narkotik vasitələr, psixotrop maddələr və onların prekursorları, eləcə də onların qanunsuz hazırlanması üçün istifadə edilən alət və avadanlıq, habelə narkotik vasitələrin, psixotrop maddələrin qanunsuz dövriyyəsində və onların prekursorlarının qanunsuz idxalında, ixracında, tranzit nəql edilməsində və istehsalında istifadə edilən və bunun nəticəsində əldə olunan əmlak və maliyyə vəsaitləri aşkar edildikdə onlar barəsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş tədbirlər görülür.

Bu Qanun qüvvəyə mindiyi gündən "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" 18 iyun 1999-cu il tarixli Azərbaycan Respublikasının Qanunu qüvvədən düşmüş hesab edilmişdir.

9 avqust 2005-ci il tarixdə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulmuş narkotik vasitələrin və psixotrop maddələrin alınması, saxlanılması, satılması, əldə edilməsi, paylaşdırılması, buraxılması, daşınması, göndərilməsi, onlardan

istifadə edilməsi, habelə narkotik vasitələrin və psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi qaydasının, narkotik vasitələrin və psixotrop maddələrin təcrübəvi hazırlanması qaydasının və bu fəaliyyətlə məşğul olan dövlət orqanlarının dairəsinin, Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi qaydasının, narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması qaydasının, narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydasının və şərtlərinin, habelə narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi qaydasının, qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi üçün təhvil verilməsi qaydasının, narkomanlıq xəstəliyinə düçar olan şəxslərin müalicəsində istifadə olunan əvəzedici müalicə proqramlarının tətbiqinin şərtlərinin və qaydalarının, Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xəstənin müalicə məqsədilə narkotik vasitələr və psixotrop maddələr aparması qaydasının və onlardan istifadə miqdarı həddinin, Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xəstənin müalicəni davam etdirmək üçün narkotik vasitələrə və psixotrop maddələrə yaranmış əlavə tələbatının ödənilməsi qaydasının, baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısının və onlardan istifadə qaydalarının, elmi məqsədlərlə və tədris məqsədləri ilə narkotik vasitələrdən və psixotrop maddələrdən istifadənin həyata keçirilməsi qaydasının, jurnalların aparılması və saxlanılması

qaydasının, peşə növlərinin və vəzifələrin siyahısının, şəxslərin tibbi müayinədən (tibbi yoxlamadan) keçməsi qaydalarının, şəxsin tibbi müayinədən keçməsi qaydalarının və ixtisaslaşdırılmış tibb müəssisəsində məcburi müalicənin şərtlərinin və qaydalarının müəyyən edilməsi tapşırılmışdır.

2 may 2007-ci il tarixdə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

1 dekabr 1998-ci il tarixdə "Birləşmiş Millətlər Təşkilatının Narkotik vasitələr haqqında Vahid Konvensiyasına qoşulmaq barədə" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

28 iyun 2005-ci il tarixdə Azərbaycan Respublikasının ərazisində dövriyyəsi qadağan edilmiş, məhdudlaşdırılmış və nəzarət edilən narkotik vasitələrin, psixotrop maddələrin, habelə Azərbaycan Respublikasının ərazisində idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına lisenziya (xüsusi razılıq) tələb olunan prekursorların siyahılarının təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 135 nömrəli 7 avqust 2000-ci il tarixli Qərarı ilə "Narkotik sərxoşluq vəziyyətinin, narkotik vasitələrin və psixotrop maddələrin istehlakı və insan bədəni daxilində narkotik vasitələrin və psixotrop maddələrin gizlədilməsi hallarının müəyyən edilməsi məqsədi ilə tibbi müayinənin keçirilməsi Qaydası", 18 nömrəli 16 yanvar 2001-ci il tarixli Qərarı ilə "İstifadə edilməsinin məqsədi göstərilməklə dövriyyəsinə Azərbaycan Respublikasının ərazisində yol verilən narkotik vasitələrin və istifadə edilməsinin məqsədi göstərilməklə dövriyyəsinə Azərbaycan Respublikasının ərazisində yol verilən psixotrop maddələrin siyahıları", 83 nömrəli 21 aprel 2001-ci il tarixli Qərarı ilə "Narkotik vasitələrin və psixotrop maddələrin istehsalında istifadə edilən və dövriyyəsinə nəzarət edilən avadanlığın siyahısı", 57 nömrəli 13 may 2003-cü il tarixli Qərarı ilə "Narkotik vasitələrin, psixotrop maddələrin saxlanılması, alınması, satılması, əldə edilməsi, bölüşdürülməsi, buraxılması, daşınması, göndərilməsi, onlardan istifadə edilməsi, habelə narkotik vasitələrin,

psixotrop maddələrin dövriyyəsinə dair sənədlərin tərtib edilməsi, saxlanılması və onların dövriyyəsi ilə əlaqədar qanunvericiliklə nəzərdə tutulmuş digər əməliyyatların həyata keçirilməsi Qaydası", 181 nömrəli 6 oktyabr 2005-ci il tarixli Qərarı ilə "Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının məhv edilməsi Qaydası", "Narkotik vasitələrin, psixotrop maddələrin dövriyyəsinə və onların prekursorlarının idxalına, ixracına, tranzit nəql edilməsinə və istehsalına, habelə narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsində iştirak edən, o cümlədən narkomanlıq xəstəliyinə düçar olan şəxslərə dair ümummilli məlumat bankına məlumatların göndərilməsi və oradan məlumatların alınması Qaydası" və "Qanunsuz dövriyyədən Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq müsadirə edilmiş, lakin dərman preparatları şəklində olduğuna və tibbi məqsədlərlə istifadə oluna biləcəyinə görə məhv edilməsi məqsədəuyğun olmayan narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi üçün təhvil verilməsi Qaydası", 39 nömrəli 9 fevral 2006-cı il tarixli Qərarı ilə "Narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydası və şərtləri, habelə narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi Qaydası", 49 nömrəli 16 fevral 2006-cı il tarixli Qərarı ilə "Narkotik vasitələrin və psixotrop maddələrin sayı və vəziyyəti haqqında jurnalların aparılması və saxlanılması Qaydası", 136 nömrəli 5 iyun 2006-cı il tarixli Qərarı ilə "Baytarlıq məqsədləri üçün lazım olan narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının siyahısı və onlardan istifadə Qaydaları" 162 nömrəli 1 iyul 2006-cı il tarixli Qərarı ilə "Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xəstənin müalicəni davam etdirmək üçün narkotik vasitələrə və psixotrop maddələrə yaranmış əlavə tələbatının ödənilməsi Qaydası", 163 nömrəli 1 iyul 2006-cı il tarixli Qərarı ilə "Azərbaycan Respublikasının ərazisindən tranzit keçən xəstənin müalicə məqsədilə narkotik vasitələr və psixotrop maddələr aparması Qaydası və onlardan istifadə miqdarı həddi", 17 nömrəli 29 yanvar 2007-ci il tarixli Qərarı ilə "Onkoloji xəstələrin müalicəsi üçün illik ayrılan dərman vasitələrinin, o cümlədən narkotik və qeyri-narkotik

ağrıkəsici preparatların siyahısı və miqdarı" və 39 nömrəli 19 mart 2009-cu il tarixli Qərarı ilə Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məhv edilməsi nəzərdə tutulan narkotik vasitələrdən müvafiq icra hakimiyyəti orqanlarının kinoloji xidmətləri tərəfindən narkotik vasitələrin axtarışı üzrə aparılan təlimlərdə istifadə olunması Qaydası" təsdiq edilmişdir.

24 iyun 2013-cü il tarixdə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanmışdır.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 118 nömrəli 25 oktyabr 2013-cü il tarixli əmri ilə "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilmişdir.

**Onkoloji yardım barədə qanunvericilik aktlarına dair**
**BƏLƏDÇİ QAYDALAR**

23 may 2006-cı il tarixdə “Onkoloji yardım haqqında” Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun onkoloji xəstələrə ixtisaslaşdırılmış tibbi və sosial yardımın göstərilməsinin hüquqi əsaslarını müəyyən edir.

Bu Qanun Azərbaycan Respublikasının vətəndaşlarına, Azərbaycan Respublikasının ərazisində daimi yaşayan əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə, habelə təşkilati-hüquqi formasından asılı olmayaraq onkoloji xəstəliklərin profilaktikası və müalicəsi ilə məşğul olan fiziki və hüquqi şəxslərə şamil edilir.

Qanuna uyğun olaraq onkoloji xəstələr onlara tibbi yardım göstərilərkən tibbi göstərişlər əsasında ambulator və stasionar şəraitində tam həcmdə mümkün olan müalicə növlərini almaq, sağlamlığının vəziyyəti, xəstəliyin mahiyyəti, tətbiq olunan müalicə üsulları, aparılmış müalicənin nəticələri haqqında ətraflı və müntəzəm məlumat almaq, onkoloji yardım göstərmək hüququ olan hər hansı mütəxəssisi və tibb müəssisəsini seçmək, konsilium və məsləhətləşmələr aparılmasını tələb etmək, müayinə və müalicə üçün zəruri müddətdə stasionarda qalmaq, siyahısı müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilmiş dərman vasitələri ilə təmin olunmaq, tibbi göstərişlər əsasında həkim resepti ilə zəruri miqdarda narkotik və qeyri-narkotik ağrıkəsici preparatları almaq, pozulmuş hüquqları barədə qanunvericilikdə müəyyən edilmiş qaydada müvafiq orqanlara və ya məhkəməyə müraciət etmək hüquqlarına malikdirlər.

Onkoloji müəssisələrin mülkiyyət formasından asılı olmayaraq ümumi təyinatlı müalicə-profilaktika müəssisələrindən aşkar olunmuş onkoloji xəstələrin sayı haqqında dəqiq məlumat almaq, onkologiya sahəsində əldə olunmuş müasir elmi-praktik nailiyyətləri tətbiq etmək, onkoloji xəstəliklər haqqında hesabatların düzgün aparılmasını tələb etmək hüquqları vardır. Onkoloji müəssisələr ümumi təyinatlı müalicə-profilaktika müəssisələrinə profilaktik tədbirlərin planlaşdırılması və keçirilməsi üçün təşkilati-metodik yardım göstərmək, bədxassəli şişə şübhəli bilinən şəxslərin hərtərəfli müayinəsini aparmaq, ehtiyac olduqda konsilium keçirmək, onkoloji

xəstələri stasionara yerləşdirmək və uyğun müalicəni aparmaq, onkoloji xəstələrin dispanser müşahidəsini və ambulator müalicəsini təşkil etmək, sanitar-maarifləndirmə işini aparmaq, həkimlərin və orta tibb işçilərinin hazırlanması, onkoloji xəstəliklərin profilaktika, diaqnostika və müalicəsi üzrə onların ixtisaslarının artırılmasını təmin etmək vəzifələrini yerinə yetirirlər.

Ümumi təyinatlı müalicə-profilaktika müəssisələrinin onkoloji yardıma dair vəzifələri yaşından yuxarı qadınların sitoloji müayinəsini təşkil etmək və aparmaq, bədxassəli şiş əlamətləri aşkar olunmuş xəstələri əlavə müayinə üçün onkoloji müəssisəyə göndərmək, onkoloji xəstəliklərin törənməsi ilə bağlı risk qrupuna daxil olan şəxslərin dispanser müşahidəsini aparmaq və sağlam həyat tərzinin vacibliyi haqqında sanitar-maarifləndirmə işlərini həyata keçirməkdən ibarətdir.

2 avqust 2006-cı il tarixdə "Onkoloji yardım haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə "Onkoloji yardım haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş onkoloji xəstəliklərin azaldılmasına yönəldilmiş müalicə-profilaktika tədbirlərinin həyata keçirilməsi qaydasının, onkoloji xəstələrə göstərilməli olan tibbi yardımın həcmi və keyfiyyət standartlarının, onkoloji xəstələrin dərman vasitələri ilə təminatı qaydasının, onkoloji xəstələrin müalicəsi üçün illik ayrılan dərman vasitələrinin, o cümlədən narkotik və qeyri-narkotik ağrıkəsici preparatların siyahısının və miqdarının, mülkiyyət formasından asılı olmayaraq tibb müəssisələrində onkoloji xəstələrin qeydiyyatı və uçotu qaydasının və azadlıqdan məhrum olmuş şəxslərə onkoloji yardımın göstərilməsi qaydasının müəyyən edilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 243 nömrəli 21 noyabr 2006-cı il tarixli Qərarı ilə "Mülkiyyət formasından asılı olmayaraq, tibb müəssisələrində onkoloji xəstələrin qeydiyyatı və uçotu Qaydası", 244 nömrəli 21 noyabr 2006-cı il tarixli Qərarı ilə "Onkoloji xəstələrə göstərilməli olan tibbi yardımın həcmi və keyfiyyət standartları", 245 nömrəli 21 noyabr 2006-cı il tarixli Qərarı ilə "Onkoloji xəstəliklərin azaldılmasına yönəldilmiş müalicə-

profilaktika tədbirlərinin həyata keçirilməsi Qaydası", 256 nömrəli 4 dekabr 2006-cı il tarixli Qərarı ilə "Azadlıqdan məhrum olmuş şəxslərə onkoloji yardımın göstərilməsi Qaydası", 266 nömrəli 20 dekabr 2006-cı il "Onkoloji xəstələrin dərman vasitələri ilə təminatı Qaydası" və 17 nömrəli 29 yanvar 2007-ci il tarixli Qərarı ilə "Onkoloji xəstələrin müalicəsi üçün illik ayrılan dərman vasitələrinin, o cümlədən narkotik və qeyri-narkotik ağrıkəsici preparatların siyahısı və miqdarı" təsdiq edilmişdir.

**Dərman vasitələri barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR**

22 dekabr 2006-cı il tarixdə "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun Azərbaycan Respublikasında dərman və tibb vasitələri ilə davranışın hüquqi və təşkilati əsaslarını müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir.

Qanuna uyğun olaraq Azərbaycan Respublikasında istehsal olunan və ya ölkəyə idxal edilən dərman vasitələrinin istifadəsi təlimatları Azərbaycan dilində dərman vasitəsinin ticarət və patentləşdirilməmiş adını, dərman vasitəsini istehsal edən ölkənin adını, dərman vasitəsinin istehsalçısının adını və hüquqi ünvanını, hazırlanma tarixi və seriya nömrəsini, tətbiq olunma qaydasını, dozasını, formasını, qablaşmada olan dozaların sayını, yararlılıq müddətini, saxlanma və buraxılma şərtlərini, dərman vasitəsinin tətbiqi zamanı təhlükəsizlik tədbirlərini, dərman vasitəsinin tərkibindəki komponentlər haqqında məlumatı, tətbiq sahəsini, əks-göstərişləri, əlavə təsirləri və digər dərman vasitələri ilə qarşılıqlı əlaqəsini əks etdirməlidir.

Əhaliyə dərman vasitələri yalnız aptek təşkilatları tərəfindən buraxılır. Aptek təşkilatlarında "Həyati vacib və təcili hallarda istifadə edilən dərman vasitələrinin siyahısı"na daxil edilmiş dərman vasitələrinin olması məcburidir. Optik ləvazimatlar, ətriyyat-kosmetika, uşaq yeməkləri, müalicəvi mineral sular, bioloji fəallığa malik qida əlavələri və şəxsi sanitariya-gigiyena malları istisna olmaqla, aptek təşkilatlarında digər malların satılması qadağandır. Həkim resepti təqdim edilməklə buraxılmalı olan dərman vasitələrinin reseptsiz buraxılması qadağandır.

Aptek təşkilatlarında xəstə qəbul etmək qadağandır. Yalnız həyat üçün təhlükəli olan hallarda aptek təşkilatlarına gətirilən şəxslərə ilk tibbi yardım göstərilə bilər.

Hər bir şəxs dərman vasitəsinin səmərəliliyi, onun əlavə təsirləri, müxtəlif dərman vasitələrinin birgə istifadəsi zamanı qarşılıqlı əlaqəsi, habelə təyin edilmiş dərman vasitəsindən istifadə olunması qaydası barədə ətraflı məlumat almaq hüququna malikdir.

Dərman vasitələrinin tətbiqi və dövriyyəsi ilə məşğul olan fiziki və hüquqi şəxslərin qanunazidd hərəkətləri nəticəsində insan sağlamlığına vurulmuş zərər qanunvericilikdə müəyyən olunmuş qaydada həmin şəxslər tərəfindən ödənilir. Dərman vasitələrinin tətbiqi nəticəsində insanın sağlamlığına vurulmuş zərər dərman vasitəsi təyinatı üzrə, istifadə təlimatına müvafiq surətdə tətbiq edilməsi və onun insan sağlamlığına zərərli təsiri istehsal zamanı yol verilmiş səhvlərin nəticəsində baş verməsi, dərman vasitəsinin insan sağlamlığına zərərli təsiri istehsalçı tərəfindən dərc edilmiş istifadə təlimatında yol verilmiş səhvlərin nəticəsində baş verməsi sübut olunduğu halda istehsalçı tərəfindən ödənilməlidir.

Dərman vasitəsinin insan sağlamlığına zərərli təsiri dərman vasitəsinin topdansatış əczaçılıq müəssisələrində və ya aptek təşkilatlarında saxlanma qaydalarının pozulması səbəbindən yararsız hala düşməsi nəticəsində baş verərsə, vurulmuş zərər həmin topdansatış əczaçılıq müəssisələri və ya aptek təşkilatları tərəfindən ödənilməlidir.

6 fevral 2007-ci il tarixdə "Dərman vasitələri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş dərman vasitələrinin dövlət qeydiyyatına alınması və reyestrinin aparılması qaydalarının, dərman vasitələrinin humanitar məqsədlər üçün Azərbaycan Respublikasına idxalı qaydasının hazırlanması, keyfiyyətinin, təhlükəsizliyinin və səmərəliliyinin araşdırılması məqsədi ilə dərman vasitələrinin elmi tədqiqat müəssisələri tərəfindən Azərbaycan Respublikasına idxalı qaydası və idxalına yol verilən miqdarın müəyyən edilməsi və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 108 nömrəli 13 iyul 2007-ci il tarixli Qərarı ilə "Dərman vasitələrinin dövlət qeydiyyatına alınması və reyestrinin aparılması Qaydaları", 116 nömrəli 25 iyul 2007-ci il tarixli Qərarı ilə "Hazırlanması, keyfiyyətinin, təhlükəsizliyinin və səmərəliliyinin araşdırılması məqsədi ilə dərman vasitələrinin elmi tədqiqat müəssisələri

tərəfindən Azərbaycan Respublikasına idxalı Qaydası", 141 nömrəli 25 sentyabr 2007-ci il tarixli Qərarı ilə "Dərman vasitələrinin humanitar məqsədlər üçün Azərbaycan Respublikasına idxalı Qaydası" və 83 nömrəli 30 aprel 2010-cu il tarixli Qərarı ilə "Dərman vasitələrinin elmi tədqiqatlarının, klinikaya qədər tədqiqatlarının və klinik sınaqlarının aparılması Qaydaları" təsdiq edilmişdir.

Səhiyyə Nazirliyinin 114 nömrəli 3 dekabr 2010-cu il tarixli əmri ilə "Həkim resepti olmadan buraxılan dərman vasitələrinin reklamına rəy verilməsi Qaydası" və Səhiyyə Nazirliyi Kollegiyasının 19 nömrəli 7 may 2013-cü il tarixli qərarı ilə "Özəl tibb fəaliyyəti subyektləri tərəfindən göstərilən tibbi xidmətlərin və həkim resepti olmadan buraxılan dərman vasitələrinin reklamına rəy verilməsi Qaydası" təsdiq edilmişdir.

16 dekabr 2014-cü il tarixdə "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanuna əsasən artıq dərman vasitələrinin qiymətləri dövlət tərəfindən müəyyən ediləcək.

Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi qaydası Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilir.

**İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR**

11 may 2010-cu il tarixdə “İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında” Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun Azərbaycan Respublikası ərazisində insanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (İİV infeksiyasının) profilaktikasının, diaqnostikasının, müalicəsinin, İİV-lə yaşayan şəxslərə tibbi və sosial-psixoloji yardım göstərilməsinin hüquqi əsaslarını müəyyən edir, bu sahədə yaranan münasibətləri tənzimləyir.

İİV-lə yaşayan şəxslərin İİV-ə yoluxması səbəbinə görə hüquq və azadlıqlarının hər hansı formada məhdudlaşdırılmasına yol verilmir. İİV-lə yaşayan şəxslər İİV infeksiyası ilə əlaqədar diskriminasiyaya və stiqmatizasiyaya (şərəf və ləyaqətin alçaldılmasına) yol verilməməsi və onlara humanist münasibət bəslənilməsi, İİV-ə tibbi müayinə və onun nəticələri, habelə tətbiq edilən tibbi nəzarət və müalicə üsulları haqqında məlumat əldə etmək, tibbi göstərişlər əsasında mümkün olan bütün müalicə növlərini almaq, nikaha daxil olmaq, digər reproduktiv hüquqlarını həyata keçirmək, İİV-in yayılmasının qarşısının alınması üzrə universal təhlükəsiz davranış qaydalarına yiyələnmək, qoruyucu vasitələrlə müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən olunmuş qaydada təmin olunmaq və qanunvericilikdə nəzərdə tutulmuş digər hüquqlara malikdirlər.

İİV-lə yaşayan şəxslərin işləməsinə yol verilməyən peşə növləri və vəzifələr istisna olmaqla, onları İİV-ə yoluxması səbəbinə görə işə qəbul etməkdən, işdə irəli çəkməkdən imtina etmək və ya işdən azad etmək qadağandır. İİV-lə yaşayan şəxslərin işləməsinə yol verilməyən peşə növləri və vəzifələrin siyahısı müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən təsdiq edilir. İşəgötürən işçinin İİV-ə yoluxması barədə məlumata malik olduqda bu məlumatı açıqlamamalıdır.

İİV-lə yaşayan şəxslər İİV infeksiyasının başqa şəxslərə yoluxmasına yol verməmək üçün məsuliyyətli və təhlükəsiz davranış

tətbiq etməli, nikaha daxil olarkən bu barədə digər tərəfi məlumatlandırmalıdırlar.

İİV-ə tibbi müayinə zəruri şəraitə, müvafiq tibbi avadanlığa malik olan istənilən tibb müəssisəsində (özəl tibb fəaliyyəti ilə məşğul olan müəssisələrin qanunvericilikdə müəyyən edilmiş qaydada bu fəaliyyətlə məşğul olmaq hüququ olduqda) aparıla bilər.

Müayinə olunan şəxs məcburi müayinə halları istisna olmaqla, istənilən mərhələdə İİV-ə tibbi müayinədən imtina etmək hüququna malikdir. İİV-ə tibbi müayinənin aparılması həyati göstərişlər əsasında təxirəsalınmaz hesab edildikdə və xəstə vəziyyəti ilə əlaqədar öz qərarını bildirmək iqtidarında olmadıqda tibbi müayinə həkimlərin konsiliumunun qərarı əsasında həll olunur. İİV-ə tibbi müayinə, İİV-müsbət status, eləcə də İİV-lə yaşayan şəxs vəfat etdikdən sonra onun İİV-müsbət statusu haqqında məlumatlar konfidensial saxlanılır və qanunvericiliklə müəyyən olunmuş qaydada qorunur. İİV-ə tibbi müayinənin könüllü tibbi müayinə, mütləq tibbi müayinə və məcburi tibbi müayinə növləri müəyyən olunur.

İİV-lə yaşayan Azərbaycan Respublikası vətəndaşlarına, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərə və Azərbaycan Respublikası tərəfindən qaçqın statusu verilmiş şəxslərə tibbi yardım (o cümlədən ixtisaslaşdırılmış tibbi yardım) dövlət tibb müəssisələrində dövlət büdcəsi vəsaiti hesabına göstərilir.

İnsanların qanı və qan komponentləri, digər bioloji mayeləri, orqan və toxumaları ilə təmasda olan, o cümlədən diaqnostik tədqiqatlar aparan, yaxud tibbi yardım göstərən tibb işçiləri tibb müəssisəsi tərəfindən zəruri qoruyucu vasitələrlə pulsuz təmin edilir, onların mütəmadi olaraq İİV-ə tibbi müayinəsi təşkil edilir.

10 iyun 2010-cu il tarixdə "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş insanın immunçatışmazlığı virusu ilə yaşayan şəxslərin qoruyucu

vasitələrlə təmin olunması qaydasının müəyyən edilməsi, insanın immunçatışmazlığı virusu ilə yaşayan şəxslərin işləməsinə yol verilməyən peşə növləri və vəzifələrin siyahısının təsdiq edilməsi, insanın immunçatışmazlığı virusu ilə yaşayan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına göstərilən tibbi yardımın həcminin, insanın immunçatışmazlığı virusu ilə yaşayan analardan doğulmuş bir yaşadək uşaqların qida məhsulları ilə pulsuz təmin olunması qaydasının və insanın immunçatışmazlığı virusu infeksiyasının profilaktikası üzrə zərərin azaldılması proqramlarının tətbiqi qaydasının müəyyən edilməsi tapşırılmışdır.

21 dekabr 2010-cu il tarixdə "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi və "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AIDS) yayılmasının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun qüvvədən düşmüş hesab edilməsi barədə Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

15 fevral 2011-ci il tarixdə "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi və "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliyin (AIDS) yayılmasının qarşısının alınması haqqında" Azərbaycan Respublikası Qanununun qüvvədən düşmüş hesab edilməsi barədə" Azərbaycan Respublikasının 2010-cu il 21 dekabr tarixli 37-IVQD nömrəli Qanununun tətbiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

20 aprel 2011-ci il tarixdə "İnsanın immunçatışmazlığı virusunun törətdiyi xəstəliklə mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 62 nömrəli 27 aprel 2011-ci il tarixli Qərarı ilə "İnsanın immunçatışmazlığı virusu ilə yaşayan şəxslərin qoruyucu vasitələrlə təmin olunması Qaydası", "İnsanın immunçatışmazlığı virusu ilə yaşayan şəxslərin işləməsinə yol verilməyən peşə növləri və vəzifələrin Siyahısı",

“İnsanın immunçatışmazlığı virusu ilə yaşayan şəxslərə dövlət büdcəsinin vəsaiti hesabına göstərilən tibbi yardımın həcmi”, “İnsanın immunçatışmazlığı virusu ilə yaşayan analardan doğulmuş bir yaşadək uşaqların qida məhsulları ilə pulsuz təmin olunması Qaydası” və “İnsanın immunçatışmazlığı virusu infeksiyasının profilaktikası üzrə zərərin azaldılması proqramlarının tətbiqi Qaydası” təsdiq edilmişdir.

**Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı barədə qanunvericilik aktlarına dair**
**BƏLƏDÇİ QAYDALAR**

7 mart 2012-ci il tarixdə "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə uyğun olaraq dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısının təşkilati-hüquqi əsaslarını müəyyən edir, bu xəstəliyin profilaktikası və müalicəsi sahəsində yaranan münasibətləri tənzimləyir.

Qanuna uyğun olaraq dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin tibbi göstərişlər əsasında ambulator, stasionar və ya sanatoriya-kurort şəraitində tibbi yardım almaq, siyahısı müvafiq icra hakimiyyəti orqanı (Azərbaycan Respublikasının Nazirlər Kabineti) tərəfindən müəyyən edilmiş yüksək effektli inyeksiya vasitələri və digər dərman preparatları ilə təmin olunmaq, müayinə və müalicə üçün zəruri müddətdə stasionarda qalmaq, psixoloji yardım almaq, sağlamlığının vəziyyəti, xəstəliyin mahiyyəti, tətbiq olunan müalicə üsulları, aparılmış müalicənin nəticələri haqqında ətraflı və müntəzəm məlumat almaq, ailənin planlaşdırılması məsələlərinə və ailə-nikah münasibətlərinin tibbi-psixoloji cəhətlərinə dair dövlət və bələdiyyə tibb müəssisələrində pulsuz məsləhətlər almaq, müayinədən keçmək və dispanser nəzarətində olmaq, Azərbaycan Respublikasının əmək qanunvericiliyi ilə müəyyən edilən işçinin səhhətinə, sağlamlığına mənfi təsir göstərən amillər olan ağır, zərərli və təhlükəli əmək şəraitli peşələr (vəzifələr) və iş yerləri istisna olmaqla, istənilən iş yerlərində işləmək, pozulmuş hüquqları barədə qanunla müəyyən edilmiş qaydada müvafiq orqanlara və ya məhkəməyə müraciət etmək hüquqları vardır. Şəxsin dağınıq skleroz xəstə olması səbəbinə görə əmək müqaviləsinin bağlanmasından imtina etmək və ya əmək müqaviləsinə xitam vermək (işəgötürənin müvafiq işi (vəzifəsi) olmadığı, habelə belə şəxslərin əməyindən istifadə olunmasına yol verilməyən iş yerlərinə işə götürməkdən imtina olunan hallar istisna olmaqla) yolverilməzdir. Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə əlillik və ya sağlamlıq imkanlarının

məhdudluğu qanunla müəyyən edilmiş qaydada təyin edilir. Dağınıq skleroz xəstəliyinə tutulmuş 18 yaşına çatanadək sağlamlıq imkanlarının məhdudluğu müəyyən olunmuş 18 yaşından yuxarı şəxslərə əlillik müddətsiz təyin edilir.

9 aprel 2012-ci il tarixdə "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə dövlət qayğısı haqqında" Azərbaycan Respublikasının Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı"nın layihəsinin hazırlanıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi, dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin dövlət tibb müəssisələrində müayinə və müalicəsinin maliyyələşdirilməsi qaydasının, onlara göstərilməli olan tibbi yardımın həcminin və keyfiyyət standartlarının Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən edilməsi, göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcminin, inyeksiya vasitələrinin və digər dərman preparatlarının siyahısının və miqdarının, habelə bu preparat və vasitələrlə təminat qaydasının müəyyən edilməsi və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi, onların sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi qaydasının müəyyən edilməsi və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat verilməsi tapşırılmışdır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 211 nömrəli 25 sentyabr 2012-ci il tarixli Qərarı ilə "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərə göstərilən illik tibbi yardımın (o cümlədən zəruri olan müayinələrin) həcmi, inyeksiya vasitələrinin və digər dərman preparatlarının siyahısı və miqdarı", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin inyeksiya vasitələri və digər dərman preparatları ilə təminat Qaydası", "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin sanatoriya-kurort müalicəsi ilə təmin edilməsi Qaydası" və "Dağınıq skleroz xəstəliyinin müalicəsində istifadə olunan yüksək effektli inyeksiya vasitələrinin və digər dərman preparatlarının Siyahısı", 278 nömrəli 5 dekabr 2012-ci il tarixli Qərarı ilə "Dağınıq skleroz xəstəliyinə tutulmuş şəxslərin dövlət tibb müəssisələrində müayinə və müalicəsinin maliyyələşdirilməsi Qaydası" və "Dağınıq skleroz

xəstəliyinə tutulmuş şəxslərə göstərilməli olan tibbi yardımın həcmi və keyfiyyət standartları" təsdiq edilmişdir.

13 noyabr 2012-ci il tarixdə "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanmışdır. Dövlət Proqramında Proqramın məqsədi, Proqramın maliyyələşdirilməsi, Proqram çərçivəsində həyata keçirilməsi nəzərdə tutulan tədbirlər, Proqramın həyata keçirilməsindən gözlənilən nəticələr öz əksini tapmışdır. Proqram çərçivəsində "Tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi, "Dağınıq skleroz xəstəliyinin profilaktikası, müalicəsi və reabilitasiyası", "Kadr hazırlığı" və "Dağınıq skleroz xəstəliyinə dair maarifləndirmə" kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 125 nömrəli 28 dekabr 2012-ci il tarixli əmri ilə "Dağınıq skleroz xəstəliyinin müalicəsi, profilaktikası və onunla mübarizə tədbirlərinə dair Dövlət Proqramı"nın icrası üçün Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilmişdir.

## Uşaqların icbari dispanserizasiyası barədə qanunvericilik aktlarına dair BƏLƏDÇİ QAYDALAR

5 mart 2013-cü il tarixdə "Uşaqların icbari dispanserizasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu imzalanmışdır.

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndinə əsasən uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsinin təşkilati-hüquqi əsaslarını, uşaqlar arasında aparılan müalicə-profilaktika tədbirlərini müəyyən edir və bu sahədə yaranan münasibətləri tənzimləyir.

Uşaqların icbari dispanserizasiyasının məqsədi uşaqların sağlamlığının qorunması və möhkəmləndirilməsinə yönəlmiş tədbirlərin həyata keçirilməsi, uşaqlar arasında xəstələnmə, sağlamlıq imkanları məhdudluğunun və ölümün səviyyəsinin azaldılması və uşaqların xəstəliklərdən qorunmasıdır.

İcbari dispanserizasiyadan keçiriləcək uşaqların və onların qanuni nümayəndələrinin bu Qanunla müəyyən edilmiş qaydada dispanserizasiyadan keçmək, dispanserizasiyanın nəticələrindən asılı olaraq tibbi göstərişlər əsasında ambulator, stasionar və ya sanatoriya-kurort şəraitində tibbi yardım almaq, dispanserizasiyanın nəticələri, o cümlədən aparılmış müayinə-müalicə tədbirləri, habelə sağlamlığının vəziyyəti haqqında tam və obyektiv məlumat almaq, pozulmuş hüquqları barədə qanunla müəyyən edilmiş qaydada müvafiq orqanlara və ya məhkəməyə müraciət etmək hüquqları vardır. Uşaqların icbari dispanserizasiyası onların qanuni nümayəndələrinin razılığı ilə aparılır. İcbari dispanserizasiya tədbirləri təqvimə uyğun olaraq müşahidə ili ərzində Azərbaycan Respublikasının vətəndaşlarını, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxsləri və əcnəbiləri əhatə edir. Uşaqlara dövlət tibb müəssisələrində icbari dispanser xidmətinin göstərilməsi dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir. İcbari dispanserizasiya tədbirləri bələdiyyə və icbari tibbi sığorta vəsaitləri, hüquqi və fiziki şəxslərin ianələri, eləcə də qanunvericiliklə nəzərdə tutulan digər vəsaitlər hesabına da həyata keçirilə bilər.

Uşaqların icbari dispanserizasiyası tədbirləri uşaqların hər il tibbi baxışdan keçirilməsi (laborator, instrumental və skrininq müayinələr də daxil olmaqla), müasir diaqnostika metodlarından istifadə etməklə ehtiyacı olanların müayinəsinin davam etdirilməsi, uşaqların sağlamlıq vəziyyətinin müəyyən edilməsi və fərdi qaydada qiymətləndirilməsi, sağlam, xəstə və xəstələnmə riski olan uşaqların bir-birindən ayrı müşahidə edilməsi, xəstə və xəstələnmə riski olan uşaqlar arasında müalicə-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi, tibbi və sosial tədbirlər kompleksinin hazırlanması və həyata keçirilməsi, habelə uşaqların sağlamlıq vəziyyətinin dinamik müşahidəsi və xəstəliklərin nozoloji formasından asılı olaraq uşaqların dispanser nəzarətinə götürülməsini əhatə edir.

10 aprel 2013-cü il tarixdə “Uşaqların icbari dispanserizasiyası haqqında” Azərbaycan Respublikasının 2013-cü il 5 mart tarixli 591-IVQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı imzalanmışdır.

Bu Fərmanla Azərbaycan Respublikasının Nazirlər Kabinetinə “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın layihəsinin hazırlanıb Azərbaycan Respublikasının Prezidentinə təqdim edilməsi, uşaqların icbari dispanserizasiyasının həyata keçirilməsi qaydasının, dispanserizasiyadan keçiriləcək uşaqlara göstərilməli olan tibbi yardımın həcminin və keyfiyyət standartlarının, xəstə və xəstələnmə riski olan uşaqlar üçün müalicə-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi qaydasının, dispanserizasiya tədbirlərinin maliyyələşdirilməsi qaydasının Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən edilməsi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə uşaqların icbari dispanserizasiyası zamanı müayinələrin və baxış keçirəcək ixtisaslı mütəxəssislərin siyahısının təsdiq və dispanserizasiyadan keçiriləcək və dispanserizasiyadan keçmiş uşaqların uçotu qaydasının müəyyən edilməsi tapşırılmışdır.

10 dekabr 2013-cü il tarixdə “Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı imzalanmışdır. Dövlət Proqramında Proqramın məqsədləri, Proqramın maliyyələşdirilməsi, Proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planı və Proqramın həyata keçirilməsindən gözlənilən

nəticələr öz əksini tapmışdır. Tədbirlər Planında "Təşkilati tədbirlər", "Tibb müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi", "Uşaqlara göstərilən tibbi xidmətlərin keyfiyyətinin yüksəldilməsi", "Kadr hazırlığı" və "İcbari dispanserizasiya sahəsində maarifləndirmə" kimi tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Dövlət Proqramında nəzərdə tutulan tədbirlər müvafiq illər üzrə Azərbaycan Respublikasının dövlət büdcəsində aidiyyəti icraçı orqanlar üçün nəzərdə tutulmuş vəsait dairəsində maliyyələşdirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 109 nömrəli 23 aprel 2014-cü il tarixli Qərarı ilə "Uşaqların icbari dispanserizasiyasının həyata keçirilməsi Qaydası", "Dispanserizasiyadan keçiriləcək uşaqlara göstərilməli olan tibbi yardımın həcmi və keyfiyyət standartları", "Xəstə və xəstələnmə riski olan uşaqlar üçün müalicə-sağlamlaşdırıcı tədbirlərin həyata keçirilməsi Qaydası" və "Dispanserizasiya tədbirlərinin maliyyələşdirilməsi Qaydası" təsdiq edilmişdir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 60 nömrəli 1 iyul 2014-cü il tarixli əmri ilə "Uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair Dövlət Proqramı"nın həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planı təsdiq edilmişdir.

## QEYDLƏR ÜÇÜN